

Milli azadlıqdan şirin nemət yoxdur!

# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

10 yanvar 2026-cı il, şənbə
№ 005 (7072)
Qiyməti 60 qəpik


# 300 milyard dollardan çox

## Azərbaycan iqtisadiyyatına xarici investisiya qoyuluşları artır



Bax səh. 2

# Qalib liderin tarixi proseslərə baxışı

Bax səh. 3

## Bir gündə 4 ünvan...

İllərdir həsrətlə gözlənilən günləri yaşayırıq, demək olar ki, hər gün işğaldan azad edilmiş rayonlarımıza köç karvanı yola salınır. Böyük Qayıdış artıq zamanın içində axan, hər səhər xəbərlərin sərlövhəsində, hər axşam insanların söhbətində yaşayan bir prosesə çevrilib. Bu qayıdışın mənası təkcə fiziki məkanın geri alınması deyil. Böyük Qayıdış həm də yaddaşın, ləyaqətin, tarixi ədalətin bərpasıdır. Uzun illər həsrətini çəkdiyimiz torpaqlara qayıtmaq, əslində özümüzə qayıtmaqdır. Çünki insan torpaqdan ayrı düşəndə, kökündən qopar, kökünə qovuşanda isə yenidən boy atar...

**Daha 89 ailə...**

Dünən Böyük Qayıdış karvanı Ağdərənin 4 kəndinə doğru yola salınıb. Belə ki, Ağdərənin Aşağı Oratağ, Heyvalı, Çapar və Çıldıran kəndlərinə ilk dəfə 89 ailə (337 nəfər) yola salınıb. Aşağı Oratağ kəndinə 31 ailə (119 nəfər), Heyvalı kəndinə 19 ailə (74 nəfər), Çapar kəndinə 26 ailə (96 nəfər), Çıldıran kəndinə isə 13 ailə (48 nəfər) köçürülüb. Ümumilikdə, Ağdərə rayonu üzrə məskunlaşan sakinlərin sayı 2663 (714 ailə) nəfər təşkil edir.

**Susdurulan yaddaşın işğal hekayəsi**

Ağdərə - Qarabağın şimalında, dağların sinəsində yerləşən bu qədim yurd yeri uzun illər təkcə coğrafi məkan yox, həm də Azərbaycan yaddaşının canlı parçası olub. Lakin XX əsrin sonlarında baş verən hadisələr...

Bax səh. 4

## Yeni nizamda Cənubi Qafqazın yüksələn rolu...



Bax səh. 6

## “Xızı-Abşeron”la başlayan qlobal həmrəylik layihəsi

Bax səh. 3

## Həddindən artıq vacib sahə - elm və təhsil

Bax səh. 4

## Avrasiyanın mühüm nəqliyyat qovşağı

Yüksək səviyyəli infrastruktur hər bir ölkədə iqtisadi inkişaf və sosial rifahın təmin olunması baxımından müstəsna önəm daşıyır. Son 22 ildə böyük həcmlərdə investisiya qoyuluşu hesabına həyata keçirilən irimiqyaslı layihələr sayəsində Azərbaycan infrastruktur təminatı göstəricilərinə görə dünyanın ən qabaqcıl ölkələri sırasına yüksəlib. Prezident İlham Əliyev bu günlərdə yerli televiziya kanallarına müsahibəsində işğaldan azad olunmuş ərazilərdə və digər bölgələrdə həyata keçirilən infrastruktur quruculuğu, nəqliyyat bağlantılarının yaradılması, yeni yolların inşasına diqqət çəkib. “Bu gün bizim iki investisiya proqramımız var - biri ənənəvi proqramdır, digəri isə Qarabağ və Şərqi Zəngəzur üçündür. Hər ikisi yüksək səviyyədə icra olunaraq uğurla həyata keçirilir. Biz bağlılıq, nəqliyyat məsələlərində daha çox iş görməliyik”, - deyə dövlətimizin başçısı vurğulayıb.

**Beynəlxalq və yerli əhəmiyyətli yolların yenidən qurulması**

Dövlət başçısının yol-nəqliyyat bağlantılarının önəminə xüsusi diqqət çəkməsi təsadüfi deyil. Azərbaycan sürətlə inkişaf edir, ölkəmizə on minlərlə avtomobil gətirilir. Bu da bağlantılara, yol infrastrukturuna tələbatın artması deməkdir. Azərbaycanın coğrafi yerləşməsini nəzərə aldıqda deyə bilərik ki, ölkə ərazisində...

Bax səh. 2

## Fransada fermer inqilabının yeni dalğası




Bax səh. 6

# 300 milyard dollardan çox

## Azərbaycan iqtisadiyyatına xarici investisiya qoyuluşları artır

Azərbaycanda təmin edilmiş sağlam və münbit sərmayə iqlimi ölkə iqtisadiyyatına yatırılan xarici investisiyaların həcmində artım dinamikasına səbəb olmaqdadır. Eləcə də, həyata keçirilən hüquqi və institusional islahatlar sərmayə axıcılığını təşviq etməkdədir. Yürüdülən siyasətə uyğun olaraq son illərdə biznes mühitinin əlverişliliyinin daha da artırılması və biznesə başlama prosedurlarının sadələşdirilməsi üçün zəruri tədbirlər görülüb ki, bu da xarici sahibkarların fəaliyyətində yeni mərhələnin başlanmasına səbəb olub. "Xızı-Abşeron" Külək Elektrik Stansiyasının rəsmi açılış mərasimində çıxış edən Prezident İlham Əliyev ölkəmizdə yaradılmış əlverişli investisiya mühitindən bəhs edərək son illərdə iqtisadiyyatımıza 300 milyard dollardan çox xarici sərmayə cəlb edildiyini vurğulayıb.

Azərbaycan xarici investorlarla əməkdaşlığa xüsusi önəm verərək dünyanın aparıcı şirkətləri ilə birlikdə həm ölkəmiz, həm də region üçün mühüm əhəmiyyət kəsb edən layihələrə imza atıb. Qlobal iqtisadiyyata inteqrasiya şəraitində aparıcı beynəlxalq şirkətlərə və xarici maliyyə qurumlarına, investorlara ölkəmizdə azad fəaliyyət üçün geniş və əlverişli imkanlar yaradılıb. Nəticədə son 20 ildə iqtisadiyyatımıza 300 milyard dollardan çox sərmayə qoyulub ki, onun əhəmiyyətli hissəsi və ya 200 milyard dolları qeyri-neft sektorunun inkişafına yönəldilib. Həmin cəmi sərmayələrin 50 faizindən çoxu xarici sərmayələrin payına düşür. Bu, xarici investorların Azərbaycana olan etimadı, ölkəmizdə hökm sürən təhlükəsizlik və sabitlik mühitinin bariz göstəricisidir.

**2025-ci ildə investisiya fəallığı davam edib**

Azərbaycan iqtisadiyyatına daxili və xarici kapital qoyuluşlarında artım dinamikası 2025-ci ildə də davam edib. Ötən ilin yanvar-noyabr aylarında əsas kapitala 16 milyard 658,9 milyon manat məbləğində investisiya yönəldilib ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 3 faiz çoxdur. Neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi 8,5 faiz azalsa da, qeyri neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi 8,3 faiz artaraq ümumi sərmayə axıcılığını təmin edib. Bu dövr ərzində istifadə olunmuş investisiyanın 8,4 milyard manatı və ya 50,6 faizi məhsul istehsalı sahələrinə, 5,6 milyard manatı (33,7 faiz) xidmət sahələrinə, 2,6 milyard manatı (15,7 faiz) isə yaşayış evlərinin tikintisinə sərf olunub. Əsas kapitala yönəldilmiş investisiyaların 12,9 milyard manatının və ya 78 faizini daxili investisiyalar təşkil edib. Həmin sərmayələrin 76,2 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunub.




Azərbaycana yatırılan birbaşa xarici investisiyaların həcmində də əhəmiyyətli artım qeydə alınıb. Cari ilin yanvar-sentyabr aylarında Azərbaycana xarici rezidentlər tərəfindən 4 milyard 736 milyon dollar birbaşa investisiya yatırılıb. Sərmayə potfelində birinci yeri 1 milyard 243 milyon dollarla Böyük Britaniya, növbəti yerləri 632 milyon dollarla Türkiyə, 543 milyon dollarla Cənubi Kipr, 384 milyon dollarla İsveçrə və 272 milyon dollarla İran tutub. Eləcə də xarici yatırım edən dövlətlər sırasında BƏƏ, Rusiya, ABŞ, Yaponiya, Macarıstan, Fransa və Hindistan sərmayədarlarının payı artıb.

Qeyd edilən dövrdə Azərbaycanın özü də sərmayədar ölkə kimi xarici ölkələrin iqtisadiyyatına 2 milyard 38 milyon dollar birbaşa investisiya yatırıb. Xaricə yönəldilən investisiyalarda əsas istiqamət İsrail olub və bu ölkəyə 542,6 milyon dollar həcmində sərmayə yatırılıb ki, bu da əsasən "Tamar" qaz yatağı layihəsi ilə bağlıdır. Türkiyəyə 289 milyon dollar, Birləşmiş Ərəb Əmirliklərinə 250 milyon dollar, Böyük Britaniyaya 176 milyon dollar, İtaliyaya isə 118 milyon dollar birbaşa xarici investisiya yatırılıb.

**Ölkəmizin beynəlxalq reytinqi yüksəlib**

Dövlət başçısı onu da vurğulayıb ki, hazırda Azərbaycanın maliyyə vəziyyəti çox müsbətdir. Aparılan islahatlar, əldə edilmiş uğurlar dünyanın aparıcı reytinq agentlikləri tərəfindən müsbət qiymətləndirilib, kredit reytinqimiz daha da artırılıb, investisiya və müsbət proqnozu olan reytinq səviyyəsinə qaldırılıb. Son 2 ildə nüfuzlu beynəlxalq iqtisadi institutlar reytinq hesabatlarında ölkəmizin maliyyə vəziyyətinə dair yeni rəy verib. "Moody's" və "Fitch" ölkəmizin reytinq investisiya səviyyəsini yeniləyərək proqnozu sabitdən müsbətə doğru yeniləyib. Belə ki, "Standart & Poor's" və "Moods" reytinq agentlikləri Azərbaycanın investisiya və kredit reytinqini artıraraq "BB+" səviyyəsinə qaldırıb. Eyni zamanda "Fitch Ratings" agentliyi Azərbaycanın yerli və xarici valyutada uzunmüddətli suveren investisiya reytinqini "pozitiv" proqnozu ilə "BBB" səviyyəsinə təyin edib. Bütün bunlar bir daha göstərir ki, Azərbaycan inkişaf etmiş ölkə kimi dünyanın aparıcı investitorlarının daim diqqət mərkəzindədir.




Beynəlxalq Valyuta Fondu (BVF) dünya ölkələrində investisiya cəlbediciliyi mühiti ilə bağlı hesabatında Azərbaycanı ən yaxşı ölkələr qrupunda qərarlaşdırıb. Belə ki, ölkəmiz ən yaxşı investisiya mühitinə malik "Top-7" qrupunda yer alıb. BVF-nin reytinqində xarici investorlar üçün əlverişli mühit iş şəraitinin yaradılması, bütün hüquqi təminatlarla əhatə olunması təqdir edilir. Ölkəmizin böyük ehtiyatları, aşağı xarici borcu, özünü təmin edən iqtisadiyyatı və digər amillər daha yüksək reytinqə malik olmağa imkan verir.

**Azad ərazilərdə sərmayəçilər üçün güzəştlər**

Azərbaycanın müasir inkişaf gündəliyində əsas investisiya sahələri kimi süni intellekt və "yaşıl enerji"yə investisiya cəlb olunması əsas strateji xətt kimi müəyyən edilib. Resurs zənginliyi ilə diqqəti cəlb edən işğaldan azad edilmiş ərazilərə xarici investorların marağı böyük olduğundan çoxsaylı iqtisadi stimullar, güzəştlər tətbiq olunmaqdadır. Dövlət başçısının "İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" sərəncamına əsasən, azad ərazilərdə uçotda olan və fəaliyyət göstərən sahibkarlıq subyektləri 2023-cü il yanvarın 1-dən etibarən 10 il müddətinə mənfəət (gəlir), əmlak, torpaq və sadələşdirilmiş vergidən, eləcə də sosial vergilərdən azad olunublar ki, bu amil həmin bölgəyə xüsusi axınları sürətləndirəcək.

*ELBRUS CƏFƏRLİ*

## Prezident Anar İsgəndərovu təltif edib

Prezident İlham Əliyevin imzaladığı müvafiq Sərəncama əsasən, Milli Məclisin Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov "Şöhrət" ordeni ilə təltif edilib. A. İsgəndərov ölkəmizin ictimai-siyasi həyatında səmərəli fəaliyyətinə görə təltif edilib.

# Avrasiyanın mühüm nəqliyyat qovşağı



*Mübariz ABDULLAYEV*

Yüksək səviyyəli infrastruktur hər bir ölkədə iqtisadi inkişaf və social rifahın təmin olunması baxımından müstəsna önəm daşıyır. Son 22 ildə böyük həcmlərdə investisiya qoyuluşu hesabına həyata keçirilən irimiqyaslı layihələr sayəsində Azərbaycan infrastruktur təminatı göstəricilərinə görə dünyanın ən qabaqcıl ölkələri sırasına yüksəlib. Prezident İlham Əliyev bu günlərdə yerli televiziya kanallarına müsahibəsində işğaldan azad olunmuş ərazilərdə və digər bölgələrdə həyata keçirilən infrastruktur quruculuğu, nəqliyyat bağlantılarının yaradılması, yeni yolların inşasına diqqət çəkib. "Bu gün bizim iki investisiya proqramımız var - biri ənənəvi proqramdır, digəri isə Qarabağ və Şərqi Zəngəzur üçündür. Hər ikisi yüksək səviyyədə icra olunaraq uğurla həyata keçirilir. Biz bağlılıq, nəqliyyat məsələlərində daha çox iş görməliyik", - deyə dövlətimizin başçısı vurğulayıb.

**Beynəlxalq və yerli əhəmiyyətli yolların yenidən qurulması**

Dövlət başçısının yol-nəqliyyat bağlantılarının önəminə xüsusi diqqət çəkməsi təsadüfi deyil. Azərbaycan sürətlə inkişaf edir, ölkəmizə on minlərlə avtomobil gətirilir. Bu da bağlantılara, yol infrastrukturuna tələbatın artması deməkdir. Azərbaycanın coğrafi yerləşməsini nəzərə aldıqda deyə bilərik ki, ölkə ərazisində yol təsərrüfatının yenilənməsi həm də regionda və dünyada müşahidə edilən reallıqlarla şərtlənir. Yaxın Şərqdə, Qırmızı dənizdə baş verənlər, Rusiya-Ukrayna müharibəsinin uzanması regionda və qlobal miqyasda ölkələri, daşıma şirkətlərini alternativ nəqliyyat-logistika marşrutları axtarmaq məcburiyyətində qoyub. Belə bir şəraitdə nəzərlər həm də Azərbaycana dikilib.

Hazırda Azərbaycan Avrasiyanın əvəzolunmaz nəqliyyat-logistika mərkəzinə çevrilib ki, bu da respublikamızın regional və qlobal miqyasda önəmini artıran çox mühüm amillərdən biri qismində çıxış edir. Beynəlxalq səviyyəli yolların yenidən qurulması Azərbaycanın strateji maraqlarına cavab verir. Ölkəmiz tranzit daşımaların cəlbediciliyini yüksəltməklə özünün valyuta gəlirlərinin həcmini artırmağı və mənbələrini şaxələndirməyi hədəfləyib. Eyni zamanda, Prezident İlham Əliyev ölkə ərazisində bütün yerli əhəmiyyətli, o cümlədən də kənd yollarının yenidən qurulmasını davamlı olaraq diqqət mərkəzində saxlayır.

Azad edilmiş ərazilərin bərpası proqramı çərçivəsində burada müasir yol-nəqliyyat infrastrukturunun qurulmasını da əsas prioritetlərdən biri kimi müəyyənləşdirib və çoxsaylı yol layihələri həyata keçirilib. "Bütün o bölgəni bir-biri ilə bağlamaq bizim əsas vəzifəmizdir. Bu bölgəni Azərbaycanın digər bölgələri ilə, - Kəlbəcər vasitəsilə Gəncə-Qərb istiqaməti, Tərtər-Bərdə-Bakı istiqaməti, Füzuli-Biləsuvar-Cənub istiqaməti ilə əlaqələndirməklə, ölkədə bağlantılar daha etibarlı olacaq, yola sərf olunan vaxt qısalacaq", - deyə Prezident İlham Əliyev vurğulayıb.

Bundan başqa, işğaldan azad olunmuş ərazilərdə quruculuq işləri çərçivəsində ən zəruri infrastrukturun yaradılması ilə bağlı Prezident İlham Əliyevin müvafiq tapşırıqlarına əsasən dəmir yollarının tikintisi işləri də qrafik üzrə davam etdirilir. Uzunluğu 140,6 km olan Horadiz-Ağbənd dəmir yolu xəttinin tikintisi sürətlə davam edir. Beynəlxalq əhəmiyyətli marşrut olmaqla Horadiz-Ağbənd dəmir yolu yaxın gələcəkdə Asiya ilə Avropa arasında yüklərin sürətlə daşınmasında böyük rol oynayacaq. Bərdə-Ağdam dəmir yolunun bərpası istiqamətində də mühüm irəliləyişlər əldə olunub. Bütövlükdə, son 22 ildə ölkə ərazisində 1.562 km yeni dəmir yolu xətti çəkilib, 1.906 km uzunluğunda xətlərdə isə zəruri təmir işləri həyata keçirilib. eyni zamanda, müasir qatar və vaqonlar alınıb.




Bütövlükdə, son 22 ildə ölkəmizdə avtomobil yollarının yenidən qurulması ilə bağlı statistika kifayət qədər zəngindir. Belə ki, bəhs olunan dövrdə ölkə ərazisində 20.767 km yol inşa olunub və yaxud əsaslı şəkildə yenidən qurulub. Prezident İlham Əliyev təkcə Bakıda 2500 kilometr yol salınmasını böyük nailiyyət kimi dəyərləndirib. Bundan başqa, bəhs olunan dövrdə ölkə ərazisində 499 körpü və yol ötürücüləri, həmçinin 114 yeraltı və yerüstü piyada keçidləri inşa olunub.

**Dəniz nəqliyyatının inkişafı**

Azərbaycanın tranzit daşımaları baxımından artan önəmi nəzərə alınmaqla ölkəmizdə dəniz nəqliyyatının inkişafı xüsusi diqqət mərkəzində saxlanılır. Bu gün Azərbaycan Xəzərdə ən böyük donanmaya malikdir. Artıq mrespublikamızın Xəzər dənizi ilə yanaşı, Qara dənizdə və digər beynəlxalq sularda də daşımalar həyata keçirmək imkanı yaranıb. Buna Azərbaycan su nəqliyyatı parkını yeniləməklə nail olub. Üç böyük tanker alınıb. Onların hər biri 115 min ton yükgötürmə qabiliyyətinə malikdir. Xarici sualarda Azərbaycan bayrağı altında üzən gəmilər "Aframax" tipli tankerlərdir. İndiyə qədər Azərbaycan gəmiçilik tarixində istismar edilən ən böyük tanker 13 000 ton dedveytə malik olub. Beləliklə, həmin gəmilərdən təxminən 10 dəfə böyük olan "Aframax" tipli tankerlərin alınması ilə Azərbaycan gəmiçiliyi yeni dövrə qədəm qoyub.



Ölkəmizdə gəmiqayırma zavodunun inşası da nəqliyyat imkanlarımızın genişlənməsi baxımından mühüm önəm daşıyır. İstehsalat Xəzər dənizində ən müasir tələblərə cavab verən istənilən növ müxtəlif təyinatlı gəmilərin tikintisi, təmiri və ümumilikdə, dəniz mühəndisliyi işlərinin yerinə yetirilməsi istiqamətində fəaliyyət göstərir.

Güclü dövlət olan Azərbaycan həmçinin liderlik keyfiyyətləri nümayiş etdirərək Xəzərdə ən böyük ticarət limanının inşasına nail olub. Bu liman hazırda dünyada mövcud olan ən yüksək standartlar səviyyəsində inşa olunub. Yeni liman 117 hektar ərazini əhatə edir və 12 yanalma körpüsünə malikdir. Hazırda Xəzər dənizində ən böyük ticarət limanlarından biri olan Bakı Beynəlxalq Dəniz Ticarət Limanının yükaşırma qabiliyyətinin ildə 15 milyon tondan 25 milyon tona qədər artırılması istiqamətində fəal iş aparılır. Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Xəzər yük donanması Orta Dəhlizin funksionallığını təmin edən vacib nəqliyyat infrastrukturlarıdır.

**Dəmir yolu şəbəkəsinin və hava nəqliyyatının müasirləşdirilməsi**

Daxili və tranzit yük daşımalarının artması həmçinin dəmir yolu şəbəkəsinin və hava nəqliyyatının imkanlarının artmasını şərtləndirir. Son 22 ildə reallaşdırılan çoxsaylı layihələrin sayəsində respublikamızda dəmir yolu şəbəkəsinin texniki imkanları və keyfiyyət göstəriciləri əhəmiyyətli dərəcədə yaxşılaşıb, texnika parkı modernləşib. Müvafiq Dövlət Proqramının icrası sürətlə təmin olunur. Bu çərçivədə Bakı-Böyük Kəsik istiqamətində 355 km yol əsaslı təmir olunub və 800 metrlik uzunölçülü relslərlə (pletlərlə) əvəzlənib. 2015-ci ilin sentyabrında yenidən qurulan Bakı-Sumqayıt dəmir yolu xətti ilə Azərbaycanda ilk "Stadler" qatarı yola düşüb. 2019-cu ildə Bakı-Sabunçu və Sabunçu-Pirşağı xətləri istifadəyə verilib. 2020-ci il martın 18-də isə Pirşağı-Görədil-Novxanı-Sumqayıt hissəsinin açılışı ilə Abşeron dairəvi xətti tam istismara verilib. Abşeron dairəvi xəttinin istismar uzunluğu 91 kilometr, stansiya yolları ilə birlikdə ümumi uzunluğu isə 198 kilometrdir. Bu yol Bakının və Abşeron yarımadasının ən önəmli nəqliyyat layihələrindən birinə çevrilib.

Bəhs olunan dövrdə respublikamızda 10-dək aeroportun inşası təmin edilib. Hazırda ölkənin regionlarında da beynəlxalq səviyyəli hava limanları fəaliyyət göstərir. Üç beynəlxalq səviyyəli hava limanı Füzuli, Zəngilan və Laçında olmaqla işğaldan azad edilmiş ərazilərdə istifadəyə verilib. Prezident İlham Əliyev həmçinin Heydər Əliyev Beynəlxalq Aeroportunun genişləndirləcəyinin anonsunu da edib.

# Qalib liderin tarixi proseslərə baxışı



## Prezident İlham Əliyevin mətbuata müsahibəsindən çıxarılan dərslər

**Tarixin ritmini dəyişən liderlik**

Müasir Azərbaycan tarixində elə mərhələlər var ki, həmin dövrlər təkcə hadisələrlə yox, liderliyin miqyası ilə ölçülür. 2025-ci il məhz belə bir mərhələ kimi tarixə düşür. Prezident İlham Əliyevin yerli televiziya kanallarına verdiyi müsahibə təkcə ilin yekunlarının icmalı kimi deyil, postmüharibə dövrünün ideoloji manifesti, Azərbaycan dövlətinin yeni geosiyasi özünüdərkinin proqram sənədi kimi çıxış edir.

Prezidentin öz ifadəsi ilə desək: "Azərbaycan döyüş meydanında əldə etdiyi parlaq Qələbəyə dünyanın bir nömrəli ofisində siyasi möhür vurdu". Bu, XXI əsr Azərbaycan dövlətçilik fəlsəfəsinin güc, legitimlik və siyasi iradə üzərində qurulduğunu göstərir.

**Birinci əsas sual:** 2025-ci il niyə Azərbaycan üçün tarixi il hesab olunur?

**Cavab:** Çünki müharibə siyasi baxımdan sona çatdı.

Prezident İlham Əliyevin müsahibəsində ən fundamental tezis ondan ibarətdir ki, Ermənistan-Azərbaycan münaqişəsi təkcə hərbi deyil, siyasi müstəvidə də qapanmışdır. Bu, nadir tarixi hadisədir, çünki bir çox münaqişələrdə hərbi mərhələ bitsə də, siyasi qeyri-müəyyənlik qalır. Prezident açıq şəkildə bəyan edir: "2025-ci ildə Ermənistan-Azərbaycan müharibəsinə siyasi nöqteyi-nəzərdən son qoyuldu və biz artıq sülh şəraitində yaşayırıq". Bu, sadəcə diplomatik ifadə deyil, 30 ildən artıq davam etmiş qeyri-sabitlik dövrünün bağlanmasıdır. Bu mərhələdə İlham Əliyev özünü təkcə hərbi qələbənin müəllifi olan sərkərdə kimi yox, qazanılmış qələbəni davamlı sülhə çevirə bilən məsuliyyətli dövlət xadimi kimi təsdiqləyir.

**İkinci əsas sual:** Qələbədən sonra sülh niyə Azərbaycan üçün üstünlükdür?

**Cavab:** Çünki sülh güclünün seçimidir.

Prezident İlham Əliyevin siyasi dünyagörüşündə sülh zəifliyin yox, gücün ali ifadəsidir. Onun sözləri bu fəlsəfəni açıq göstərir: "Biz onların şəhərlərini Ağdamın vəziyyətinə sala bilərdik. Heç kim bizi dayandıra bilməzdi. Amma bunu etmədik". Bu, məsuliyyətli güc konsepsiyasıdır. İlham Əliyev XXI əsr lideri kimi anlayır ki, dağıtmaq asandır, amma dayandırmaq yalnız güclünün edə biləcəyi seçimdir. Bu yanaşma Azərbaycanı regionda intiqam dövləti yox, nizam yaradan aktor səviyyəsinə yüksəldir.

**Üçüncü əsas sual:** ABŞ ilə münasibətlərdə dönüş nöqtəsi nədən ibarətdir?

**Cavab:** 907-ci düzəlişin siyasi iflası və İlham Əliyevin diplomatik qələbəsi.

Prezidentin müsahibəsində ən sərt, eyni zamanda ən prinsipial məqam 907-ci düzəlişə münasibətdir. Bu məsələ təkcə hüquqi sənəd deyildi, həm də tarixi ədalətsizliyin simvolu idi. İlham Əliyev açıq deyir: "Bu düzəliş bizə qarşı çox böyük ədalətsizlik idi". Lakin burada əsas məsələ keçmişdən şikayət kimi görsənməməlidir; əsas məsələ odur ki, Azərbaycan artıq mövqeyindən danışan tərəfdir. Tramp administrasiyası dövründə həmin düzəliş faktiki olaraq siyasi gündəmdən çıxarılıb. Bu, İlham Əliyevin illərlə apardığı prinsipial və səbirli diplomatiyanın nəticəsidir. Bu gün Azərbaycan ABŞ üçün regional güc, nəqliyyat qovşağı, enerji təhlükəsizliyi tərəfdaşı və geosiyasi balans elementi kimi qəbul olunur. Bu, kiçik dövlət üçün yox, öz taleyini özü yazan dövlət üçün xarakterik mövqedir.

**Dördüncü əsas sual:** Çin, D-8 və Mərkəzi Asiya xətti nəyi göstərir?

**Cavab:** Azərbaycan artıq həm regional, həm də qlobal əlaqələndirici mərkəzdir.

Prezident İlham Əliyevin xarici siyasət fəlsəfəsi çoxqütblü, praqmatik və milli maraqlara əsaslanan siyasətdir. Çinlə imzalanmış Hərtərəfli Strateji Tərəfdaşlıq, D - 8 təşkilatına qəbul, Mərkəzi Asiya Məşvərət Şurasına tamhüquqlu üzvlük - heç biri təsadüfən baş vermiş hadisə deyil. Bunlar Azərbaycanın artan nüfuzu nəticəsində mümkün olub. Prezidentin sözləri ilə desək: "Azərbaycanı seçmək bizə olan hörmətin və müstəqil siyasətimizin nəticəsidir". Bu mərhələdə Azərbaycan Şərqlə Qərbi birləşdirən canlı körpüyə, Orta Dəhlizin əsas dayağına, etibarlı tranzit və enerji mərkəzinə çevrilir. Dünyada əlverişli coğrafi mövqeyə malik çox ölkə var, lakin bu üstünlüyün ölkənin uzunmüddətli milli maraqlarına xidmət edən strateji alətə çevrilməsi yalnız analitik düşüncəyə və dövlətçilik məsuliyyətinə malik liderliyin nəticəsidir.

**Beşinci əsas sual:** Hərbi güc və türk dünyası niyə önə çıxır?

**Cavab:** Çünki müasir dünya güc dilində danışır.

Prezident İlham Əliyevin beynəlxalq münasibətlərə dair baxışı klassik siyasi realizm məktəbinin əsas prinsipləri ilə səsləşir. Onun "Bugünkü dünyada beynəlxalq hüquq yoxdur, güc var" fikri emosional ritorika və ya publisistik pafos kimi qəbul edilməməlidir. Bu ifadə qlobal siyasi sistemin faktiki vəziyyətinə verilmiş rasional və obyektiv diaqnozdur. Müasir beynəlxalq mühitdə hüquqi mexanizmlərin çox zaman selektiv tətbiqi, beynəlxalq institutların böyük güclərin siyasi iradəsindən asılı vəziyyətə düşməsi və münaqişələrin hüquqdan daha çox güc balansı üzərində tənzimlənməsi bu reallığı açıq nümayiş etdirir.

Bu kontekstdə Prezident İlham Əliyevin təhlükəsizlik yanaşması idealist və romantik təhlükəsizlik modellərinə əsaslanmır. O, beynəlxalq sistemdə kollektiv təhlükəsizlik mexanizmlərinin formal xarakter daşıdığını və real zəmanət yaratmadığını nəzərə alaraq, qərarlarını soyuq siyasi analiz, risklərin qiymətləndirilməsi və güc balansının düzgün hesablanması üzərində qurur. Məhz bu yanaşma Azərbaycanın son illərdə həm hərbi, həm də diplomatik müstəvidə qazandığı uğurların əsas mənbəyidir.

Türk Dövlətləri Təşkilatı çərçivəsində birgə hərbi təlimlər təşəbbüsü də bu realist təhlükəsizlik konsepsiyasının praktik ifadəsidir. Təklif hərbi hədə-qorxu və ya qarşı tərəflərə yönəlmiş təzyiq aləti kimi qələmə verilmir, əksinə, üzv dövlətlər arasında qarşılıqlı etimadın möhkəmləndirilməsinə, əməliyyat uyğunluğunun artırılmasına və potensial təhlükələrə qarşı qabaqlayıcı koordinasiyanın formalaşdırılmasına xidmət edir. Bu, kollektiv təhlükəsizliyin regional səviyyədə real və işlək mexanizmlər üzərində qurulmasına yönəlmiş rasional addımdır. Eyni zamanda, bu yanaşma Türk dünyasında təhlükəsizlik anlayışının müdafiə xarakterli və sabitliyə yönəlik olduğunu göstərir. Azərbaycan bu prosesdə təşəbbüskar rol oynamaqla regionda güc balansını pozan deyil, təhlükəsizlik arxitekturasının formalaşmasına töhfə verən aktor kimi çıxış edir.

Nəticə etibarilə Prezident İlham Əliyevin realist baxışı Azərbaycanın təhlükəsizlik strategiyasını illüziyalardan uzaq, real güc amilləri üzərində qurmağa imkan verir. Bu strategiya ölkəni qlobal qeyri-sabitlik şəraitində risklərdən qoruyan, eyni zamanda regional sabitliyin möhkəmləndirilməsinə xidmət edən məsuliyyətli dövlət modelinə çevirir. Məhz bu amil Azərbaycanın təşəbbüskar, etibarlı strateji tərəfdaş kimi qəbul olunmasını şərtləndirir.

**Analitikləri heyran qoyan siyasi zəka**

Prezident İlham Əliyevin liderliyini tamamlayan ən mühüm cəhətlərdən biri də onun intellektual miqyası və qlobal düşüncə qabiliyyətidir. Onun Azərbaycan, rus və ingilis dillərində səlis, məntiqli və konseptual şəkildə çıxış etməsi təkcə dil biliklərinin göstəricisi deyil, müxtəlif siyasi və mədəni məkanlarda eyni dərəcədə anlaşılan, arqumentləşdirilmiş və təsirli dövlət mövqeyinin ifadəsidir. İlham Əliyev ölkə daxilində və beynəlxalq müstəvidə baş verən prosesləri dərindən bilməklə kifayətlənmir, o həm də həmin proseslərin məntiqini, inkişaf trayektoriyasını və mümkün nəticələrini qabaqcadan hesablayan nadir liderlərdəndir.

Onun siyasi davranışı və çıxışları dünya siyasətinin mürəkkəb şahmat lövhəsində çoxgedişli kombinasiyaları öncədən görən əsl qrossmeyster obrazını xatırladır. Hadisələrə vaxtında, həm də ölçülü-biçili reaksiya verməsi, riskləri qabaqcadan dəyərləndirməsi və strateji addımları mərhələli şəkildə reallaşdırması onu təsadüfi qərarlardan uzaq tədbirli və məsuliyyətli böyük dövlət xadimi kimi fərqləndirir.

İlham Əliyevin çıxışları, arqumentləri və analitik təhlilləri təkcə siyasi auditoriyanı yox, alimləri, beynəlxalq münasibətlər üzrə mütəxəssisləri, politoloqları və analitik dairələri də heyran qoyur. Onun dərin biliklərə əsaslanan, faktlarla möhkəmləndirilmiş və məntiqi ardıcıllıqla qurulmuş mövqeləri bir çox hallarda mürəkkəb beynəlxalq proseslərin mahiyyətini ən aydın şəkildə izah edən analitik çərçivəyə çevrilir. Məhz bu keyfiyyətlərin vəhdəti İlham Əliyevi tarixi prosesləri qabaqlayan, zamanın çağırışlarını düzgün oxuyan və dövlətinin gələcəyini etibarlı şəkildə formalaşdıran böyük dövlət xadimi zirvəsinə yüksəldir. Bu liderlik modeli Azərbaycanın yalnız bu gününü deyil, sabahını da təmin edən düşünülmüş və güclü dövlətçilik irsidir.



*Kəramət QƏNBƏROV,*
*Beynəlxalq hüquq üzrə ekspert*

# "Xızı-Abşeron"la başlayan qlobal həmrəylik layihəsi

## Azərbaycan, Səudiyyə Ərəbistanı və Çin "yaşıl enerji"nin sərmayə müttəfiqliyini yaratmaqdadır

"Xızı-Abşeron" Külək Elektrik Stansiyasının (KES) istifadəyə verilməsi "yaşıl enerji" quruculuğunda mühüm hadisə olmaqla, Azərbaycanın enerji siyasətinə yazılan uğurlardan biri kimi dəyərləndirilə bilər. Stansiyanın rəsmi açılış mərasimində çıxış edən Prezident İlham Əliyevin də vurğuladığı kimi bu, bərpaolunan enerji sahəsində tarixi hadisədəir və ölkəmizin enerji potensialını gücləndirəcək, ümumi inkişafına öz töhfəsini verəcək.

"Xızı-Abşeron" layihəsi, eyni zamanda, Azərbaycanın nüfuzlu beynəlxalq xarici investisiya ailəsi ilə - Səudiyyə Ərəbistanı və Çinlə enerji əməkdaşlığının mühüm bir formatı, qlobal həmrəylik layihəsidir. Ölkəmizin yaxın strateji tərəfdaşları ilə birgə dünyaya təqdim etdiyi enerji investisiyasıdır. Stansiya qlobal enerji ailəsi arasında yeni birlik və bərabərlik, həmrəylik, əməkdaşlıq zəncirinin möhkəmlənməsində mühüm əhəmiyyət daşıyacaq.

Azərbaycan hökumətinin "yaşıl enerji" sektorunda həyata keçirdiyi strategiyanın əsas xətti yerli "yaşıl güclərin" istehsalı və emalına xarici investorların cəlb edilməsidir. Bu istiqamətdə müəyyən edilmiş siyasət öz uğurlu nəticələrini göstərməkdədir. Son 3 ildə Azərbaycan Birləşmiş Ərəb Əmirliklərinin "Masdar", Səudiyyə Ərəbistanının "ACWA Power", Böyük Britaniyanın "bp", Avstraliyanın "Fortescue Future Industries", Yaponiyanın "TEPSCO", İtaliyanın "Maire Tecnimont", Çinin "China Gezhouba Group Overseas Investment", Fransanın "Total Energies" və digər xarici şirkətlərlə bərpaolunan enerji istehsalına dair müqavilələr imzalayıb.

### 2032-ci ilin "yaşıl enerji" hədəfləri

"Xızı-Abşeron" Külək Elektrik Stansiyası Azərbaycanın "yaşıl hədəflərə" çatmasında da mühüm rol oynayacaq, bərpaolunan enerji potensialının artmasını təşviq edəcək. "ACWA Power" tərəfindən inşa edilmiş KES birinci bərpaolunan elektrik stansiyası olmaqla, "yaşıl enerji" blokunda digər stansiyalar üçün yaşıl yol açmış olur. Hazırda ölkəmizin müxtəlif yerlərində bərpaolunan enerji növləri inkişaf edir. Növbəti böyük stansiyaların açılışı Biləsuvarda, Neftçalada, Naxçıvanda, işğaldan azad edilmiş ərazilərdə nəzərdə tutulur. Azərbaycanın coğrafi vəziyyəti istənilən bölgədə bərpaolunan enerji növlərini istehsal etməyə imkan verir. Təkcə Xəzər dənizinin Azərbaycan sektorundakı külək potensialı beynəlxalq qiymətləndirməyə görə, 157 giqavat səviyyəsindədir. Yəni növbəti illərdə artıq bu proses Azərbaycanda geniş vüsət alacaq. Azərbaycan bölgənin çox etibarlı və böyük elektrik generasiya gücünə malik ölkəsi olacaq.



İmzalanmış kontraktlar əsasında 2030-cu ilə qədər 6, 2032-ci ilə qədər isə, ümumiyyətlə, 8 giqavat gücündə külək və Günəş elektrik stansiyaları istifadəyə veriləcək.

### Azad ərazilərdə Zəfərin işıqları



Azərbaycanın "yaşıl enerji" strategiyasında əsas potensial güc mənbəyi kimi azad edilmiş ərazilərin resursları xüsusi yer tutur. Ortamüddətli inkişaf konsepsiyasında bu ərazilər Yaşıl Enerji Zonas elan edilib. Mövcud dəyərləndirmələr göstərir ki, Qarabağ və Şərqi Zəngəzurda bərpaolunan enerji potensialına görə, digər bölgələrdən qat-qat zəngindir. Bu bölgə hidroenerji, külək və günəş enerjisi, termal suların mənbələrinə görə, ölkə üzrə rersursların 30-40 faizinə malikdir. Həmin iqtisadi rayonlardan Qubadlı, Zəngilan, Cəbrayıl və Füzuli günəş enerjisinə görə, ən əlverişli potensiala malikdir və enerji gücünün həcmləri 7200 MVt-dan artıq qiymətləndirilir.

Son 5 il ərzində Qarabağda və Şərqi Zəngəzurda dövlət vəsaiti hesabına 40-a yaxın kiçik su elektrik stansiyası inşa olunub, onların ümumi potensialı 300 meqavatdan çoxdur.

Hazırda xarici şirkətlərlə bölgədə bərpaolunan enerji layihələri də icra edilir.

Azərbaycan hökuməti ilə bp şirkəti arasında əldə edilmiş razılığa əsasən, Zəngilan-Cəbrayıl zonasında 340 MVt gücündə 3 günəş elektrik stansiyası inşa edilir. Digər ərazilərin potensial elektrik gücü ilə bağlı xəritə də tərtib edilib və bölgədə təqribən 500-600 meqavat gücündə kiçik su elektrik stansiyalarını inşa ediləcək.

Azərbaycanın bərpaolunan enerji siyasətinin ikinci istiqaməti resursların ixracının şaxələndirilməsədir. Bu istiqamətdə də fundamental hüquqi baza yaradılıb, iqtisadi infrastrukturlar möhkəmləndirilir. "Xəzər-Qara dəniz-Avropa" dəhlizinin yaradılması ilə artıq Azərbaycanın "yaşıl ixracatçı"ya çevrilmək statusu öz həlini tapıb.

***E.CƏFƏRLİ***



# Həddindən artıq vacib sahə - elm və təhsil

*Mübariz ABDULLAYEV*

İnnovativ inkişafla səciyyələnən Dördüncü sənaye inqilabı dövründə ölkələri, xalqları güclü edən mühüm amillər sırasında elm və təhsil xüsusi yer tutur. Azərbaycanın xoşbəxtliyi ondadır ki, Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsinə uyğun olaraq respublikamızda elm və təhsilin inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirilib. Dövlətimizin başçısı bu günlərdə yerli televiziya kanallarına müsahibəsində ölkəmizdə elm və təhsil sahəsində vəziyyəti dəyərləndirərək bu istiqamətdə reallaşdırılan layihələrin, aparılan islahatların önəmini vurğulayıb. "İndi biz xalqımızın, dövlətimizin gələcəyini onilliklər, yüzilliklər bundan sonra görməyə çalışmalıyıq. Ona görə bu, həddindən artıq vacib sahədir və ümid edirəm ki, aparılan islahatlar yaxşı nəticələrə gətirib çıxaracaq".

**Neft kapitalının insan kapitalına çevrilməsi siyasəti**

Çox haqlı olaraq elm və  təhsil bütün dövrlərdə hər bir dövlətin və xalqın ümumi inkişaf səviyyəsinin əsas göstəricilərindən biri kimi səciyyələndirilib. Dünya tarixinə nəzər saldıqda görürük ki, ayrı-ayrı ölkələr məhz keyfiyyətli təhsilə və elmin inkişafına verdikləri önəm sayəsində yüksək inkişaf səviyyəsinə çatmağa nail olublar. Müasir dövrdə isə elm və təhsillə bağlı çağırışların aktuallığı daha da artıb. Təsadüfi deyil ki, Birləşmiş Millətlər Təşkilatı (BMT) XXI əsri "Təhsil əsri" elan edib. Prezident İlham Əliyev neftlə zəngin olan ölkələrlə inkişaf etmiş dövlətlərin müqayisəsini apararaq bildirib: "Mən bunu dəfələrlə demişəm, bir daha deyirəm tam şüurlu şəkildə, inkişaf etmiş ölkələrin inkişafı ancaq zəka, ağıl, təhsil, elmlə bağlıdır, neftlə, qazla yox. Baxın, neftlə, qazla zəngin olan ölkələrin və inkişaf etmiş ölkələrin vəziyyətinə. Bəli, neftlə, qazla zəngin olan ölkələr arasında uğurlu ölkələr var, çox deyil, amma var. Onların texnologiyaları haradan gəlir? Onlar özləri onları icad edir? Yox, o, beyin mərkəzlərindən, texnoloji mərkəzlərdən gəlir. O da nəyə bağlıdır? Təhsilə, elmə."

Azərbaycana böyük həcmlərdə maliyyə gəlirləri daxil olur, məsələ həmin resursların zənginliyində deyil, düzgün istifadə edilməsindədir. Bu məqsədlə neft kapitalının insan kapitalına çevrilməsi siyasəti ardıcıllıqla həyata keçirilir, dövlət büdcəsindən elm və təhsilə ayrılan vəsaitlər davamlı olaraq artırılır. İndiyədək respublikamızda təhsilin müxtəlif pillələrində yüksək keyfiyyətin, müasir qlobal çağırışlara adekvatlığın təmin olunması məqsədilə bir neçə dövlət proqramı qəbul edilərək həyata keçirilib. "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı", habelə "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın icrası nəticəsində 5000-dən artıq Azərbaycan gənci dünyanın nüfuzlu ali məktəblərində təhsil almağa müvəffəq olub. Dövlət başçısının imzaladığı sənədlər əsasında "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası", "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı" qəbul olunub. Yeni Dövlət Proqramının icrası müddətində hər il 400 nəfərdən çox olmamaqla, ümumilikdə 2000 nəfərədək azərbaycanlı tələbənin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almaları təmin ediləcək.

Ölkəmizdə 2030-cu ilədək olan dövrü əhatə edən strateji mərhələ üçün müəyyənləşdirilən 5 milli prioritetdən biri  məhz rəqabətli insan kapitalının və müasir innovasiyalar məkanın formalaşdırlması ilə bağlıdır. Bu prioritetin uğurla reallaşdırılması üçün isə XXI əsrin tələblərinə uyğun elm və təhsil sisteminin qurulması əsas məqsədlərdən biri kimi qarşıya qoyulub. Prezident İlham Əliyevin 2 fevral 2021-ci il tarixində imzaladığı "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində oxuyuruq: "Cəmiyyətin inkişafının təminatçısı olan ümumi təhsilin gücləndirilməsi üçün təhsil sistemində gedən modernləşmə davam etdirilməli, məzmun islahatları dərinləşməli, inteqrativ tədris təcrübəsi inkişaf etdirilməlidir. Bu əsasda ölkənin beynəlxalq qiymətləndirmələrdə (PISA, PIRLS, TIMSS, ICILS) mövqeyinin əhəmiyyətli dərəcədə yaxşılaşmasına nail olunmalıdır".

**Struktur və kadr islahatları, ali təhsil müəssisələrinin modernləşdirilməsi**

Müasirləşməni strateji hədəf kimi müəyyənləşdirən Azərbaycan da məhz dünyadakı qabaqcıl təcrübələrə istinad etməklə genişmiqyaslı islahatlara start verib. Artıq müəyyən struktur dəyişikliyi edilib, o cümlədən Elm və Təhsil Nazirliyi yaradılıb. İki sahənin eyni strukturda birləşdirilməsi məqsədli şəkilldə edilib. Dövlətimizin başçısının vurğuladığı kimi, Elmlər Akademiyası fəaliyyət göstərsə də,  faktiki olaraq elm dövlət strukturlarından kənarda qalmışdı. Dövlət siyasətini daha dolğun şəkildə həyata keçirmək üçün elm və təhsil bir yerdə olmalıdır.

Yüksək inkişaf səviyyəsinə çatmış əksər ölkələrdə elm daha çox ali məktəblərlə bərabər, yaxud da ki, onların nəzdində inkişaf edir. Respublikamız da məhz bu modeli seçib. Hazırda struktur islahatları aparılır. İslahatların zəruri olduğunu bildirən Prezident İlham Əliyev "Bir çox elmi-tədqiqat institutları bir-biri ilə birləşdirilir. Struktur islahatları ilə paralel olaraq, kadr islahatları da gedir, daha müasir, daha gənc kadrlar önə çəkilir. Burada keyfiyyət əmsalını da tapmaq o qədər də çətin deyil. Bu, dünya təcrübəsində var. Sənin elmi əsərlərin hansı elmi jurnallarda, hansı dərgilərdə nə qədər çap olunub və sənin elmi potensialın bugünkü reallıqlara nə dərəcədə uyğundur. Əgər biz doğrudan da elmi inkişaf etdirmək istəyiriksə, sadəcə, elmi işçiləri işlə təmin etmək yox, elmi inkişaf etdirmək istəyiriksə, bu islahatlara getməliyik", - deyə vurğulayıb.

**Dövlət proqramları gəncləri güclü şəkildə təşviq edir**

Bütövlükdə, Azərbaycan dövləti cəmiyyətin intellektual səviyyəsini yüksəltməyi hədəfləyib. Həyata keçirilən tədbirlər də məhz buna hesablanıb. Prezident İlham Əliyev bildirib ki, cəmiyyətin ümumi intellektual səviyyəsi, bilik səviyyəsi yüksək olanda, orada, necə deyərlər, pleyadalar, belə istedadlı şəxsiyyətlər yaranır. Qəbul olunan dövlət proqramları da gəncləri güclü şəkildə təşviq edir, onları ölkədə saxlayır və rəhbər vəzifələrə bilikli kadrların gətirilməsi cəmiyyətin intellektual səviyyəsini yüksəldir. Bu məqsədlə "Yüksəliş" müsabiqəsi təsis edilib. Bu müsabiqənin əsas məqsədi intellektual səviyyəsi və idarəçilik keyfiyyətləri yüksək olan perspektiv rəhbər şəxslərin müəyyən edilməsi, dəstəklənməsi və ölkədə kadr ehtiyatı bankının yaradılmasıdır.

Dövlət başçısının təşəbbüsü ilə 2011-ci il 19 dekabr tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu yaradılıb. Fondun qarşısında gənclər siyasəti ilə bağlı elm, təhsil, mədəniyyət və digər sosial sahələrə yönəlmiş ictimai və sosial əhəmiyyətli, o cümlədən beynəlxalq səviyyədə həyata keçirilən layihə və proqramları qrant şəklində maliyyələşdirmək məqsədi qoyulub. 2018-ci ildə fond yenidən təşkil edilərək Gənclər Fondu adlandırılıb. Gənclərə dəstək yönündə verilən mühüm qərarlardan biri də 2013-cü il 2 iyul tarixində ölkədə ilk dəfə "Gənclər üçün Prezident Mükafatı"nın təsis edilməsidir. Mükafat elm, mədəniyyət, o cümlədən ədəbiyyat və incəsənət, təhsil, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq fəaliyyəti sahələrində xüsusi fərqlənən 10 nəfər gəncə  ildə bir dəfə verilir.

# Bir gündə 4 ünvan...

## Ağdərəyə köç karvanı yola salınıb

*Yeganə BAYRAMOVA*







İllərdir həsrətlə gözlənilən günləri yaşayırıq, demək olar ki, hər gün işğaldan azad edilmiş rayonlarımızda köç karvanı yola salınır. Böyük Qayıdış artıq zamanın içində axan, hər səhər xəbərlərin sərlövhəsində, hər axşam insanların söhbətində yaşayan bir prosesə çevrilib. Bu qayıdışın mənası təkcə fiziki məkanın geri alınması deyil. Böyük Qayıdış həm də yaddaşın, ləyaqətin, tarixi ədalətin bərpasıdır. Uzun illər həsrətini çəkdiyimiz torpaqlara qayıtmaq, əslində özümüzə qayıtmaqdır. Çünki insan torpaqdan ayrı düşəndə, kökündən qopar, kökünə qovuşanda isə yenidən boy atar...

**Daha 89 ailə...**

Dünən Böyük Qayıdış karvanı Ağdərənin 4 kəndinə doğru yola salınıb. Belə ki, Ağdərənin Aşağı Oratağ, Heyvalı, Çapar və Çıldıran kəndlərinə ilk dəfə 89 ailə (337 nəfər) yola salınıb. Aşağı Oratağ kəndinə 31 ailə (119 nəfər), Heyvalı kəndinə 19 ailə (74 nəfər), Çapar kəndinə 26 ailə (96 nəfər), Çıldıran kəndinə isə 13 ailə (48 nəfər) köçürülüb. Ümumilikdə Ağdərə rayonu üzrə məskunlaşan sakinlərin sayı 2663 (714 ailə) nəfər təşkil edir.

**Susdurulan yaddaşın işğal hekayəsi**

Ağdərə - Qarabağın şimalında, dağların sinəsində yerləşən bu qədim yurd yeri uzun illər təkcə coğrafi məkan yox, həm də Azərbaycan yaddaşının canlı parçası olub. Lakin XX əsrin sonlarında baş verən hadisələr bu yaddaşı zorla susdurmağa, torpağı sahibindən ayırmağa cəhd göstərdi. Ağdərənin işğalı spontan bir hərbi hadisə deyildi. Bu, Sovet İttifaqının süqutu fonunda baş qaldıran erməni millətçi iddialarının, mərkəzi hakimiyyətin zəifləməsinin və bölgədə süni şəkildə alovlandırılan separatizmin nəticəsi idi. 1988-ci ildən etibarən Qarabağda başlayan gərginlik tədricən silahlı münaqişəyə çevrildi. Azərbaycan dövlətçiliyi hələ formalaşma mərhələsində olduğu bir vaxtda, nizamsızlıq, siyasi böhran və idarəetmə boşluğu düşmənin planlarını asanlaşdırdı.

1992-ci ildə Qarabağda döyüşlər xüsusilə şiddətləndi. Ağdərə strateji mövqeyinə görə əsas hədəflərdən birinə çevrildi. Rayon həm hərbi baxımdan yüksəkliklərə nəzarət imkanı verirdi, həm də ətraf bölgələrlə əlaqə nöqtəsi idi. Erməni silahlı birləşmələri, xaricdən gələn muzdlu döyüşçülərin və keçmiş sovet hərbi arsenalının dəstəyi ilə Ağdərəyə hücumları intensivləşdirdi.

Silah-sursat baxımından üstün olan düşmən qüvvələrinə qarşı yerli əhali və zəif təşkilatlanmış müdafiə dəstələri dayana bilmədi. Kəndlər top atəşinə tutuldu, yaşayış məntəqələri viran qoyuldu. Mülki əhali - qadınlar, uşaqlar, qocalar doğma evlərini tərk etməyə məcbur oldu. Ağdərə təkcə hərbi baxımdan yox, humanitar baxımdan da böyük faciə yaşadı.

İşğal prosesi tədricən rayonun demoqrafik mənzərəsini dəyişdi. Azərbaycanlı əhali tamamilə qovuldu, tarixi izlər silinməyə çalışıldı, toponimlər dəyişdirildi. Ağdərə bir rayon kimi xəritələrdən "yoxa çıxarıldı", sanki bu torpağın sahibləri heç vaxt burada yaşamamışdı.

**Ağdərə müharibənin ən mürəkkəb cəbhələrindən biri idi**

Torpaq yaddaşını itirmir. Ağdərə işğal altında qaldığı illər ərzində Azərbaycan cəmiyyətinin vicdanında açıq yara kimi qaldı. Bu işğal təkcə bir rayonun deyil, beynəlxalq hüququn, ədalətin və insan haqlarının tapdanması idi.

2020-ci ilin payızında başlayan Vətən müharibəsi məhz bu susqun torpaqların dil açdığı, tarix qarşısında ədalətin bərpa olunduğu an oldu. 44 gün davam edən Vətən müharibəsi Azərbaycan dövlətinin gücünü, ordusunun peşəkarlığını və xalq-ordu birliyinin sarsılmazlığını dünyaya nümayiş etdirdi. Ağdərə istiqaməti müharibənin ən mürəkkəb və strateji cəbhələrindən biri idi. Dağlıq relyef, möhkəmləndirilmiş düşmən mövqeləri və illərlə qurulmuş istehkamlar bu ərazini keçilməz hesab etdirirdi.

Döyüşlər əsasən Tərtər-Ağdərə istiqamətində ağır artilleriya və dəqiq zərbələrlə başladı. Uzun illər ərzində düşmən tərəfindən Azərbaycanın yaşayış məntəqələrini atəş altında saxlayan yüksəkliklər bir-bir azad edildi. Bu yüksəkliklərin nəzarətə götürülməsi düşmənin müdafiə xəttini çökdürdü və Ağdərə bölgəsində hərbi balansı kökündən dəyişdi.

Ağdərənin kəndləri və strateji mövqeləri mərhələli şəkildə nəzarətə götürüldü. Bu, təkcə bir ərazinin azad edilməsi deyildi - bu, 30 illik işğal mifinin dağılması idi. Nəticədə 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatla Ermənistan kapitulyasiyaya imza atdı. Bu sənəd Ağdərə də daxil olmaqla Qarabağda işğal dövrünün faktiki sonunu təsdiqlədi. Ağdərə yenidən Azərbaycan suverenliyinin ayrılmaz hissəsinə çevrildi.

**Tarixi ədalətin bərpasının növbəti təzahürü**

Uzun illər işğalın ağır izlərini daşıyan Ağdərə bu gün tamamilə fərqli bir mənzərə ilə qarşılanır. Vaxtilə səssizliyə bürünmüş kəndlərə yenidən insan səsi, uşaq gülüşü, həyat nəfəsi qayıdır. Dövlətin məqsədyönlü siyasəti, görülən genişmiqyaslı bərpa və quruculuq işləri nəticəsində Ağdərənin dörd kəndi doğma sakinlərini qarşılamağa hazır vəziyyətə gətirilib.

Bu köç karvanı sadəcə ailələrin evlərinə dönüşü deyil. Bu, Azərbaycanın tarixi ədalətinin bərpasının növbəti təzahürüdür. Hər bir qayıdan ailə ilə birlikdə o kəndlərə yalnız məişət əşyaları deyil, xatirələr, arzular, sabaha inam da daşınır. Bu torpaqlarda yenidən ocaq qalayacaq insanlar illərdir qəlblərində yaşatdıqları Vətən həsrətini gerçəkləşdirirlər.

**"İndi doğma torpaqlarda yeni həyata başlayacağıq"**

Ağdərənin Çapar kəndinə köç edən keçmiş məcburi köçkün Zülfiyyə Əliyeva bildirib: "Yurdumuzdan uzun illər ayrı düşsək də, ürəyimiz həmişə o yerlərdə olub. Bu gün yenidən doğma torpaqlarımıza qayıdırıq. Sözlə ifadə oluna bilməyən sevinc hissi keçiririk. Artıq köçkünlük dövrü bitir, indi doğma torpaqlarda yeni həyata başlayacağıq. Buna görə hər zaman şəhidlərimizə borcluyuq. Ali Baş Komandana, Ordumuza minnətdarıq".

**"Hər gün bu qayıdışın həsrətini çəkmişik"**

Heyvalı kəndinə köç edən keçmiş məcburi köçkün Nuridə Abbasova: "Bizim üçün böyük gündür. İllərlə doğma yurdumuzdan uzaqda yaşamışıq, hər gün bu qayıdışın həsrətini çəkmişik. İndi Ağdərəyə qayıdırıq və elə bil yenidən həyata başlayırıq. Bizi doğma torpaqlara qovuşduran Prezidentimizə, Ordumuza minnətdarıq. Şəhidlərimizi heç vaxt unutmayacağıq, onların sayəsində bu günləri yaşayırıq".



# "Səs" qəzeti - 35

Yanvarın 11-də "Səs" qəzetinin fəaliyyətə başlamasının 35-ci ili tamam olur. Qəzet Azərbaycan milli mətbuatında özünəməxsus yeri olan, zəngin inkişaf tarixi keçib, ölkəmizdə jurnalistikanın inkişafına xidmət göstərən media orqanı kimi tanınır.

"Səs" qəzeti  respublikamızın  çox çətin bir vəziyyətdə olduğu zamanlarda fəaliyyətə başlayıb. 1990-cı illərin əvvəlində Azərbaycanda mürəkkəb siyasi proseslərin, hakimiyyət uğrunda mübarizələrin davam etdiyi bir şəraitdə bu qəzet respublikamızın yalnız Ulu Öndər Heydər Əliyev tərəfindən xilas edilə biləcəyini bəyan edib və Onun tərəfdarlarının tribunasına çevrilib, cəsarətlə öz sözünü deyib, daim ədalətin zəfər çalması uğrunda mübarizə aparıb. Məhz bu mübarizliyinə görə, Ulu Öndər Heydər Əliyev "Səs" mənim üçün əziz ən qəzetdir" deyib.

Bütövlükdə, 35 illik fəaliyyəti dövründə "Səs" qəzeti daim Ümummilli Liderimiz Heydər Əliyev ideyalarına, Prezident İlham Əliyevin siyasi kursuna, milli mətbuatımızın ənənələrinə və milli dövlətçiliyimizə sədaqətlə xidmət edib.

Şübhəsiz ki, qəzetin inkişafında onun yaradıcı kollektivinin böyük xidmətləri vardır. Bu qəzetin kollektivi vətənpərvər, dövlətimizin milli maraqlarına xidmət edən jurnalistlərdən ibarətdir.

"Yeni Azərbaycan" qəzetinin kollektivi olaraq "Səs" qəzetini 35 illik yubileyi münasibətilə ürəkdən təbrik edir, Baş redaktor Bəhruz Quliyev başda olmaqla  qəzetin kollektivinə yeni-yeni yaradıcılıq uğurları arzulayırıq!

# İxracda rekord göstərici

## Ötən il qeyri-neft sektoru üzrə ixrac 3,6 milyard dollar təşkil edib

2025-ci ildə Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı 2024-cü illə müqayisədə 8,5 faiz artaraq 3,6 milyard dollar təşkil edib. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin dərc etdiyi "İxrac icmalı"nda qeyd edilir ki, ötən il yeyinti məhsulları üzrə ixrac 18,4 faiz artaraq 1,2 milyard dollara bərabər olub. İxrac olunan şəkər ötən ilin müvafiq dövrünə nəzərən 57,4, meyvə-tərəvəz 27,4, alüminium və onlardan hazırlanan məmulatlar 24,2, pambıq iplik 19,3, kimya sənayesi məhsulları 8, bitki və heyvan mənşəli piylər və yağlar 2 faiz artıb.

Hesabat dövrü ərzində aqrar məhsullar üzrə ixrac 26,7 faiz artaraq 1 milyard dollara, aqrar-sənaye məhsulları üzrə ixrac isə 314,7 milyon dollara bərabər olub. Bütövlükdə, aqrar və aqrar-sənaye məhsullarının birgə ixracı 18,9 faiz artaraq 1,3 milyard dollar təşkil edib.

### Son 7 ildə qeyri-neft ixracı 15 milyard dolları ötüb

Ümumilikdə, son illərdə ölkə iqtisadiyyatının neft-qaz sektorundan asılılığının əhəmiyyətli dərəcədə azalması müşahidə olunur. Qeyri-nef sektorunda yığımların davamlı şəkildə hər il artması həm ÜDM-də, həm də dövlət büdcəsində neftdənkənar sahələrin payının artmasına səbəb olub. Bu dinamika eyni zamanda, qeyri-neft ixracının artmasını stimullaşdırıb. 2019-2025-ci illərdə qeyri-neft-qaz ixracının 2 dəfədən çox artaraq 15 milyard dolları ötüb.

Bu dövrdə ölkəmizin ticarət tərəfdaşlarının sayı artaraq 185-ə çatıb, 110-dan çox ölkəyə qeyri-neft məhsulları ixrac olunub. Qeyri-neft-qaz ixracı sahəsində coğrafi şaxələnmə ilə yanaşı, məhsul çeşidlərinin şaxələnməsi üzrə də uğurlu nəticələr əldə olunub.

### Ticarət Evləri ixracın təşviqində mühüm rol oynayır

Azərbaycanda qeyri-neft ixracının artmasında Ticarət Evlərinin də mühüm əhəmiyyəti var. Azərbaycan məhsullarının xarici bazarlara çıxarılması, satışının təşkili və əlaqələndirilməsində Ticarət Evlərinin imkanları kifayət qədər böyükdür. "Made in Azerbaijan" brendi altında qeyri-neft məhsullarının ixracının artırılması məqsədilə xaricdə Ticarət Evləri 2017-ci ildən yaradılmaqdadır. Azərbaycan ötən illərdə Rusiya, Belarus, Birləşmiş Ərəb Əmirlikləri, Qətər, Ukrayna, Polşa, Latviya, Çin, Qazaxıstanda Azərbaycanın Ticarət Evləri fəaliyyət göstərir.

Ticarət Evləri Azərbaycan məhsullarının təkcə satışı və tanıdılması üçün əhəmiyyət daşıyır, bu cür iqtisadi strukturlar həm də iki ölkə arasında faydalı iqtisadi müzakirələr üçün platforma rolunu oynayır, Azərbaycan ixracatçılarının potensial imkanlarını nümayiş etdirir. Son illərdə Azərbaycanla iqtisadi əlaqələri inkişaf etdirən Çində Azərbaycan Ticarət Evlərinin sayının artması da bunu təsdiqləyir. İndiyədək Çinin Çindao, Canciaciye, Sian, Çendu və Pekin şəhərlərində Azərbaycanın Ticarət Evləri açılıb, eləcə də Şanxay, Harbin, Cinan və Uhan şəhərlərində 4 ticarət bölməsi, Urumçi və Şanxayda isə 3 Şərab Evinin fəaliyyəti təmin edilib.

Eləcə də Körfəz ölkələri ilə Azərbaycan arasında iqtisadi əlaqələrin inkişafında yeni mərhələnin başlanması bu region ölkələrində də ixrac xəritəsinin coğrafiyasını genişləndirib və yeni Ticarət Evlərinin yaradılması işlərini sürətləndirib.







### Ənənəvi bazarlardan yeni bazarlara keçid...

Hökumətin hədəfi ixracın şaxələndirilməsi, ənənəvi bazarlardan yeni bazarlara keçidin təmin olunmasıdır. Bu məqsədlə yerli şirkətlərin ixracla bağlı xarici ölkələrdə sertifikat və patentlərin alınmasının sadələşdirilməsi, ixracla əlaqəli tədqiqat-inkişaf proqram və layihələrinə çəkilən xərclərin dövlət büdcəsi hesabına ödənilməsi və əlavə güzəşt alətlərinin tətbiqi üzərində işlər aparılır. Motivasiyaedici tədbirlərdən biri logistik subsidiya mexanizminin tətbiqidir. Yeni mexanizm ixracla məşğul olan sahibkarların sərhəd-keçid məntəqələrində asan tranzit sisteminin yaradılması, gömrük sərhədkeçmə prosedurlarının sadələşdirilməsi, logistika üzrə güzəştlərin verilməsini və tarif səmərəliliyi üzrə təşviqlərin tətbiqini nəzərdə tutur. Eyni zamanda, yeni və qeyri-ənənəvi bazarlara ixracı stimullaşdırmaq üçün müxtəlif təşviq mexanizmlərinin verilməsi gözlənilir. Ən mühüm güzəşt aləti isə işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən biznesin xarici bazarlara çıxışında dövlət dəstəyi tədbirlərinin həyata keçirilməsi, onların ixrac fəaliyyəti üzrə logistik xərclərinin tam şəkildə qarşılanmasıdır.

Ümumilikdə, bütün bütün bu tədbirlərin məqsədi ixrac coğrafiyasının şaxələndirilməsinə töhfə vermək, ənənəvi bazarların tranzitini yeni istiqamətlərə yönəltmək, bununla da daha yüksək gəlir gətirən ixrac potensialını formalaşdırmaqdır.

### İxracın həcminin 2 dəfədən çox artırılması hədəflənib

Azərbaycanın qarşısında duran müasir iqtisadi çağırışlardan biri ixracyönümlü iqtisadiyyata keçidin təmin olunması, Avropa, Asiya və digər region ölkələri ilə əlverişli ticarət sazişlərinə əsaslanan aşağı tarifli mühitdə səmərəli gömrük prosedurlarının tətbiqi nəticəsində mövqeyinin gücləndirilməsidir. Bu məqsədlə ölkəmizin şaxələndirilmiş nəqliyyat-logistika imkanlarından və informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə etməklə ixrac potensialının daha da yüksəldilməsi, transsərhəd ticarətin, o cümlədən elektron ticarətin əhatə dairəsinin genişləndirilməsi nəzərdə tutulur.

"Milli ixrac strategiyası"na əsasən, ortamüddətli dövrə dair strateji yol xəritələrinə əsasən, qeyri-neft sektoru üzrə ixracın hazırda adambaşına düşən həcminin 200 dollardan 450 dollara çatdırılması hədəflənib. Qeyri-neft ixracını illik 13-15 faiz artırmaqla həmin hədəfə çatmaq mümkündür. Həmin hədəflərə çatmaq üçün yeni sənəd - "Milli ixrac strategiyası" hazırlanıb. Sənəd 15-dən çox hədəf bazarını və 120 çeşid ixrac məhsulunu müəyyən edir.

Strategiyaya əsasən, Azərbaycanın qeyri-neft ixracını 2028-ci ilədək iki dəfə artırmaq və 3,7 milyard dollara çatdırmaq planlaşdırılır. Sonrakı illərdə bu rəqəmin 5 milyarda qədər çatdırılması nəzərdə tutulur. Bu məqsədlərə çatmaq üçün xarici ölkələrə qeyri-neft məhsullarının ixracı ilə məşğul olan sahibkarların fəaliyyətinin daha da təşviq edilməsi, "Made in Azerbaijan" və "İnvest in Azerbaijan" ixrac portalları üzrə sifarişlərin daha qlobal ticarət şəbəkələrinə inteqrasiyasının təkmilləşdirilməsi planlaşdırılır. Eləcə də iri şirkətlərin və nüfuzlu investorların Azərbaycana gətirilməsi və qeyri-neft istehsalı sahələrinə, ələxsus da bərpa olunan enerji sahələrinə cəlbi məqsədilə yeni iqtisadi alətlərin tətbiqi strategiyanın əsas prioritetləri sırasında yer alır.

***E.CƏFƏRLİ***

# Yeni nizamda Cənubi Qafqazın yüksələn rolu...

## Bakı sülhün memarı, Ermənistan yol ayrıcında...

Müasir dünyada baş verən geosiyasi silkələnmələr, lokal münaqişələrin qlobal qarşıdurmalara çevrilməsi, beynəlxalq təhlükəsizlik sisteminin zəifləməsi fonunda qlobal proseslərdə strateji coğrafiyaların əhəmiyyəti və rolu daha da artmaqdadır. Bu baxımdan Cənubi Qafqaz bu gün təkcə regional deyil, qlobal güclərin diqqət mərkəzində olan əsas məkanlardan biridir. Ukrayna böhranı, Yaxın Şərqdə davam edən qeyri-sabitlik, enerji və nəqliyyat marşrutları üzərində gedən rəqabət Avrasiya məkanında yeni siyasi-iqtisadi düzənin formalaşmasını sürətləndirir. Belə bir mürəkkəb şəraitdə Cənubi Qafqazda davamlı sülhün təmin edilməsi təkcə region ölkələri üçün deyil, bütövlükdə beynəlxalq sistem üçün mühüm əhəmiyyət daşıyır.

Məhz bu reallıqlar fonunda Azərbaycanın yürütdüyü praqmatik və gələcəyə hesablanmış xarici siyasət Cənubi Qafqazda sülhün əsas lokomotivinə çevrilib. 44 günlük Vətən müharibəsindən sonra yaranmış yeni geosiyasi reallıq regionda köhnə qarşıdurma xəttini aradan qaldıraraq əməkdaşlıq və tərəfdaşlıq üçün real zəmin formalaşdırıb. Bakı təhlükəsizliyin yalnız hərbi güc üzərindən deyil, qarşılıqlı iqtisadi əlaqələr, nəqliyyat-kommunikasiya bağlantıları və siyasi dialoq vasitəsilə möhkəmləndirilməsini prioritet elan edib. ABŞ və digər aparıcı dövlətlərin sülh prosesinə açıq dəstəyi də Azərbaycanın təşəbbüslərinin beynəlxalq miqyasda qəbul edildiyini göstərir. Beləliklə, bu gün əsas prioritet kimi sülhün vacibliyi ön plana çıxır. Ermənistan üçün isə bu mərhələ tarixi bir yolayrıcıdır.

### Avrasiyanın yeni "hertland"i...

Sirr deyil ki, formalaşmaqda olan yeni qlobal siyasi nizamda Cənubi Qafqaz Avrasiyanın "geosiyasi hertlandı" funksiyasını yerinə yetirir. Həm coğrafi, həm də iqtisadi mənada Qərblə Şərqin, Şimalla Cənubun kəsişməsində yerləşən bu ərazi tarix boyu sivilizasiyaların qovşağı kimi şöhrət tapıb. Müasir mərhələdə isə Cənubi Qafqaz təkcə təsir zonası deyil, eyni zamanda qərarların formalaşdığı və qlobal proseslərə istiqamət verən məkana çevrilməkdədir.

Məhz Azərbaycanın liderliyi ilə regionda yaradılan yeni təhlükəsizlik arxitekturası bu siyasi əhəmiyyəti daha da artırır. Bakı hərbi revanşizmin, etnik qarşıdurmaların və süni gərginliklərin region üçün dalan yol olduğunu ortaya qoyaraq sivil əməkdaşlıq modelini təklif edir. Bu model suverenliyə hörmət, sərhədlərin toxunulmazlığı və daxili işlərə qarışmamaq prinsiplərinə əsaslanır. Azərbaycanın təşəbbüsü ilə Cənubi Qafqazda xarici müdaxilələrdən kənar, regional məsuliyyətə söykənən siyasi mühit formalaşmaqdadır. Bu gün artıq siyasi fikir ayrılıqlarının həlli üçün münaqişə yox, dialoq platformaları önə çıxır. Bakı regionu qütbləşmə məkanı yox, maraqların uzlaşdırıldığı siyasi körpüyə çevirir. Bu isə Cənubi Qafqazın beynəlxalq sistemdə sabitləşdirici faktor kimi çıxış etməsinə imkan yaradır.

### Cənubi Qafqazın iqtisadi əhəmiyyəti...

Siyasi sabitlik iqtisadi inkişafın əsas şərtidir və bu reallıq Cənubi Qafqazda açıq şəkildə özünü göstərir. Azərbaycan regionda sülh və təhlükəsizlik indeksini yüksəltməklə Avrasiya üçün yeni iqtisadi imkanlar formalaşdırıb. Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin kəsişdiyi bu coğrafiya artıq qlobal ticarət zəncirinin mühüm halqasına çevrilib.

Xüsusilə Zəngəzur dəhlizi (TRİPP) regionun iqtisadi xəritəsini köklü şəkildə dəyişdirə biləcək strateji layihədir. Bu dəhliz təkcə Azərbaycanın əsas hissəsi ilə Naxçıvanı birləşdirmir, eyni zamanda Orta Asiyadan Avropaya qədər uzanan geniş iqtisadi əlaqələr üçün açar rolunu oynayır. Azərbaycan tərəfindən yaradılan logistika infrastrukturu, limanlar, dəmir yolları və enerji layihələri Cənubi Qafqazı Avrasiyanın əsas tranzit mərkəzlərindən birinə çevirir.

Bu imkanlar yalnız regional ölkələr üçün deyil, Qlobal Cənubdan Avropaya qədər geniş bir coğrafiya üçün cəlbedicidir. Prezident İlham Əliyev yanvarın 5-də yerli tedeviziya kanallarına verdiyi müsahibədə bu məqama xüsusi toxunub. Dövlət başçısı bildirib ki, bu layihə tam başa çatandan sonra onun yükötürmə qabiliyyəti 15 milyon tona bərabər olacaq və bayaq qeyd etdiyim kimi, həm Şərq-Qərb, həm də ki, Şərq-Cənub, bəlkə də Şimal-Cənub yolunun bir qolu olacaq: "Çünki bu gün Şimal-Cənub layihəsi deyəndə, ilk növbədə, Rusiya-Azərbaycan-İran, yəni Rəşt-Astara yolu nəzərdə tutulur. Bu yol da vacibdir. Ancaq Zəngəzur dəhlizi açılandan sonra sovet vaxtı mövcud olmuş Sovet İttifaqı-İran yolu yenə də bərpa ediləcək. Yəni ki, Rusiya-Bakı-Ağbənd-Ermənistan-Naxçıvan-Culfa-Fars körfəzi - bu, Şimal-Cənub marşrutunun ikinci yolu olacaq".

Beləliklə, Bakı iqtisadi əməkdaşlığı qlobal siyasi etimadın əsas dayağı kimi təqdim edir və sübut edir ki, sülh konkret iqtisadi dividendlər yaradır. Cənubi Qafqaz artıq risk zonası deyil, investisiya və ticarət məkanı kimi qəbul olunmağa başlayır.



### Ermənistan üçün real şans

Mövcud reallıqlar fonunda Ermənistan üçün tarixi seçim anı yetişib. Azərbaycan tərəfindən yaradılan sülh və əməkdaşlıq imkanları regionda bütün ölkələr üçün açıqdır. Lakin bu imkanlardan faydalanmaq üçün İrəvan köhnə revanşist düşüncədən imtina etməli və yeni regional nizamı qəbul etməlidir. Sülh sazişinin imzalanması Ermənistan üçün təkcə siyasi sənəd deyil, strateji xilas yoludur.

Sülh Ermənistana uzun illər davam edən təcriddən çıxmaq, regional layihələrə qoşulmaq və iqtisadi dirçəliş əldə etmək imkanı verəcək. Paralel olaraq bu addım Ermənistanın daxili siyasi sabitliyini və iqtisadi təhlükəsizliyini də möhkəmləndirəcək. Əks halda, İrəvan regiondan kənarda qalmaqla yanaşı, öz gələcəyini də risk altına atmış olacaq. Bu mənada sülh Ermənistan üçün zəruri və yeganə rasional seçimdir.

### Regionun gələcəyinin dizaynı...

Nəticə etibarı ilə, bu gün Azərbaycan Cənubi Qafqazı Avrasiyanın mərkəzinə çevirən əsas güc kimi çıxış edir. Bakı sülhü abstrakt şüar yox, konkret siyasi və iqtisadi mexanizmə çevirərək regionun gələcəyini yenidən dizayn edir. Formalaşan yeni reallıqda qarşıdurma yox, əməkdaşlıq qalib gəlir. Cənubi Qafqazın taleyi artıq keçmiş münaqişələrin girovu deyil. Azərbaycanın təşəbbüsləri sayəsində region qlobal sabitliyə töhfə verən, yeni imkanlar yaradan strateji məkana çevrilir. Bu yol sülh yoludur və bu yol açıqdır. Ermənistanın qarşısında isə yalnız bir sual qalır: bu tarixi fürsətdən istifadə etmək, yoxsa onu əbədi itirmək...

***Pərviz SADAYOĞLU***

# Fransada fermer inqilabının yeni dalğası

Fransa dünyada həm də ənənələr ölkəsi kimi tanınır. Belə görünür ki, fransızlar əcdadlarının inqilab ənənələrini davam etdirməyi də özlərinə borc bilirlər. Son illərdə bu ölkədə iri həmkarlar ittifaqları təşkilatlarının çağırışları ilə müxtəlif peşə sahiblərinin, sıravi vətəndaşların, pensiyaçıların hökumət əleyhinə Parisdə və əyalətlərdə permanent hal alan etiraz aksiyaları keçirmələri belə qənaətə gəlməyə əsas verir. Əgər bir vaxtlar Fransada baş verən Bastiliyanın alınması hadisələri digər ölkələrə də sirayət etmişdisə, zəmanəmizdə Avropanın qonşu ölkələri fransızlardan "Pe-yin inqilabı", "Sarı jiletlilər hərəkatı" nümunələrini əxz edirlər. Son günlərdə isə bu ölkədə fermerlərin yeni inqilab dalğası baş qaldırıb. Söhbət Aİ-Mercosur razılaşmasının Fransada çaxnaşma yaratmasından, sənədin fermerlər tərəfindən kəskin qəzəblə qarşılanmasından gedir.

## Mercosur sazişi özündə nəyi ehtiva edir?

Mercosur və ya Merkosul Argentina, Braziliya, Paraqvay (dayandırılıb), Uruqvay və Venesuela arasında imzalanan iqtisadi və siyasi müqavilədir. Boliviya, Çili, Kolumbiya, Ekvador, Peru bu müqavilədə assosiativ üzvlər kimi təmsil olunurlar. Meksika və Yeni Zelandiya isə müşahidəçi üzvlərdirlər. Mercosurun strateji məqsə-



di-qarşılıqlı intensiv ticarət, investisiyanın effektiv istifadəsi əsasında üzvlərinin iqtisadi artımına zəmanət verən birliyin yaradılması, həmçinin subregionların beynəlxalq rəqabət qabiliyyətliliyinin artırılmasıdır.

Mercosur razılaşması ötən əsrin altmışıncı illərinin çağırışları fonunda gündəmə gəlib. Həmin dövrdə baş vermiş iqtisadi və siyasi böhrandan sonra Cənubi Amerikada inteqrasiya proseslərinə maraq 1980-ci illərdən başlayaraq yenidən artmağa başlayıb. Belə ki, 1986-cı ildə Argentina və Braziliya-Latın Amerikasının iqtisadi cəhətdən güclü iki dövləti iqtisadi əməkdaşlıq və davamlı inteqrasiyanın inkişafı haqqındakı birgə layihələrini irəli sürüblər və başqa ölkələrin bura qatılmasının açıq olduğunu elan ediblər. Bundan sonra Uruqvay və Paraqvay da onlara qoşulublar.

1991-ci ilin mart ayında Paraqvayın Asunsone şəhərində gömrük birliyi və ümumi bazar - Mercosur-un yaradılması haqqında dördtərəfli müqavilə imzalanıb. 1994-cü ildə Asunsone müqaviləsinə əlavə olaraq sərbəst ticarət zonasının yaradılmasını və sonradan onun gömrük birliyi ilə əvəz olunmasını təsdiq edən yeni müqavilə imzalanıb. 1995-ci ildə bu müqavilə qüvvəyə minib və birliyin sərhədləri daxilinə üçüncü ölkədən məhsul idxalına dair ümumi gömrük tarifləri tətbiq olunmağa başlayıb. Təşkilatın nüfuzu artdıqca Cənubi Amerikanın başqa dövlətləri də buraya qoşulmağa başlayıblar və beləliklə də müqavilə genişlənib.

Mercosur-un fəaliyyətdə olduğu dövrdə Latın Amerikasının digər təşkilatları ilə ticari iqtisadi tərəfdaşlıq getdikcə böyüyüb. Meksika və Çili özlərinin geosiyasi mövqeyindən istifadə edərək NAFTA və Mercosur arasında bağlayıcı bənd rolunu oynamağa cəhd göstəriblər. 1991-ci ildə Mərkəzi Amerikada yaradılmış "Mərkəzi Amerika inteqrasiya təşkilatı-SICA" (6 dövlət - Qvatemala, Honduras, Kosta-Rika, Nikaraqua, Panama, Salvador) 1998-ci ildə öz sərbəst ticarət zonasını Mercosur-un sərbəst ticarət zonası ilə birləşdirmək haqqında müqavilə imzalayıblar. Ötən dövrdə qarşıya çıxan bəzi obyektiv və subyektiv çətinliklərə baxmayaraq, Mercosur Latın Amerikasının ən böyük inteqrasiya təşkilatı olaraq öz yerini saxlayır. Belə ki, Latın Amerikasının əhalisinin 200 milyondan çoxu, ÜDM-nun 50 faizi, birbaşa xarici investisiyanın 40 faizi, məhsul dövriyyəsinin 60 faizdən çoxu və daxili ticarətinin 33 faizdən çoxu bu təşkilatın payına düşür.



## Mercosur-un Aİ üçün cəlbediciliyi

Avropa Komissiyası hazırda qlobal təchizatda yaranan çətinlikləri nəzərə almaqla Aİ-nin ticarət əlaqələrini şaxələndirmək strategiyasından çıxış edir. Bu, iqtisadi çətinliklər dönəmində "qoca qitə"nin ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün mühüm əhəmiyyət daşıyır. Mercosur-un Aİ üçün artan cəlbediciliyi də ilk növbədə bununla bağlıdır. Avropa Komissiyasının prezidenti Ursula Fon der Lyayen Mercosur və Meksika ilə əldə olunan sazişlərin əhəmiyyətini qeyd edərək Avropanın şaxələndirməni ikiqat artırdığını və bunun yeni imkanlar açan tərəfdaşlıq olduğunu vurğulayaraq bildirib: "Aİ biznesi və aqrar-ərzaq sektoru aşağı tariflərdən, azaldılmış xərclərdən faydalanacaq. Onlar qlobal miqyasda daha rəqabətədavamlı olacaqlar".

Yeni azad ticarət zonası 700 milyondan çox əhalini əhatə etməklə dünyada ən böyük zona olacaq. Bununla da Aİ ilə Mercosur ölkələri arasında tariflər və digər maneələr böyük ölçüdə aradan qaldırılacaq. 2024-cü ildə iki tərəf arasında ticarət dövriyyəsi 112,3 milyard avro təşkil edib. Komissiya hesab edir ki, saziş Avropanın Cənubi Amerikaya illik ixracını 39 faiz - 49 milyard avro artıraraq, qitə üzrə 440 mindən çox iş yerini dəstəkləyə bilər. Xüsusilə avtomobil, maşınqayırma və əczaçılıq sənayesi üçün böyük imkanlar gözlənilir.

Fransa, Polşa və İtaliyanın kənd təsərrüfatı sahəsində narahatlıqları sazişin təsdiqini əvvəlcə çətinləşdirsə də, sonradan Paris və Varşavadan da müsbət siqnallar verilib. Tərəflər Aİ-ya 99 min ton əlavə dana əti, 30 min ton isə pendir üçün kvota tanıyır. Almaniya və İspaniya sazişi Çindən asılılığın azaldılması baxımından strateji addım hesab edir. Bununla yanaşı, kənd təsərrüfatı lobbiləri və ekoloji təşkilatlar razılaşmanın Amazon kimi meşələrin qırılmasını sürətləndirə biləcəyindən ehtiyatlanırlar.





## Fransa fermerlərinin kəskin etirazı

Aİ-nin və Makron iqtidarının Mercosurla əməkdaşlığa yaşıl işıq yandırması Fransada fermerlərin kəskin etirazına səbəb olub. Bu günlərdə onlar Avropa İttifaqının Cənubi Amerika ölkələri ilə imzalamağa hazırlaşdığı genişmiqyaslı ticarət müqaviləsinə və digər yerli narahatlıqlara etiraz olaraq Parisdə binaları mühasirəyə alıblar. "Reuters" agentliyinin məlumatına görə, Koordinasiya Kənd Birliyinin üzvü olan fermerlər Avropa İttifaqı ilə Cənubi Amerika bloku arasında azad ticarət müqaviləsindən narazılıqlarını və hökumətin mal-qara xəstəliyi ilə mübarizəsindən narahat olduqlarını bildirərək Parisdə etiraz aksiyalarına çağırış ediblər.

Bu etirazlar Avropa Komissiyasının fermerlər üçün 45 milyard avroluq Aİ vəsaiti təklif etməsindən və Mercosur-u dəstəkləməkdə tərəddüd edən ölkələri sakitləşdirmək üçün bəzi gübrələrə idxal rüsumlarını azaltmağa razılaşmasından bir neçə gün sonra baş verib.

Eyfel qülləsinin ətrafında, Sena çayının sahilində onlarla traktor dayanaraq şəhər mərkəzinə doğru bəzi yolları bağlayıb. Fransa polisinin sərt qadağasına baxmayaraq, fermerlər şəhər mərkəzinə çatıblar.

Verilən məlumatlarda bildirilir ki, "Coordination Rurale" həmkarlar ittifaqından olan fermerlər bəhs olunan sazişə uyğun olaraq ölkəyə ucuz qida məhsullarının idxalının artacağından narahatdırlar. Bu, baş verərsə, onların iqtisadi maraqları təhlükə altına düşəcək. "Biz narazılıq və ümidsizlik arasındayıq. Özümüzü tərk edilmiş hiss edirik. Bizi kosmik gəmi, "Airbus" və ya avtomobil naminə atıblar", - deyə Vyendəki həmkarlar ittifaqının vitse-prezidenti Stefan Pelletye "Reuters" agentliyinə deyib.

**MÜBARİZ**

# Daha bir qurban...

## Mina terroru davam edir

Azərbaycan dünyada mina terrorundan ən çox əziyyət çəkən ölkələrdən biridir. 30 illik işğal dövründə Ermənistan xeyli sayda hərbi cinayətlər törədib ki, bunların sırasında mina terroru da əsas yerlərdən birini tutur. Ermənistanın mina terroru hələ də davam edir.

### Bu dəfə Cəbrayılın Mehdili kəndində...

Yanvarın 7-də Cəbrayıl rayonunun Mehdili kəndi ərazisində mina partlayıb. Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyindən (ANAMA) verilən məlumata görə, humanitar minatəmizləmə əməliyyatlarına cəlb edilən özəl şirkətlərdən birinin əməkdaşı 1985-ci il təvəllüdlü Rəşad Nəriman oğlu Məmmədov xidməti vəzifəsini yerinə yetirərkən piyada əleyhinə mina partlayışı baş verib. Hadisə nəticəsində Rəşad Məmmədov ayaq nahiyəsindən yüngül xəsarətlər alıb. Xəsarət alan əməkdaş rayon mərkəzi xəstəxanasına təxliyə edilib. Vəziyyəti qənaətbəxşdir, həyati təhlükəsi yoxdur.

Xatırladaq ki, bundan əvvəl mina hadisəsi təxminən 20 gün əvvəl Ağdam rayonunun Çəmənli kəndi ərazisində baş vermişdi. Hadisə nəticəsində 1982-ci il təvəllüdlü Sarıcalı kənd sakini Qədir Malik oğlu Məmmədov keçmiş təmas xəttində minalardan təmizlənməmiş ərazidə traktorla yer şumlayarkən tank əleyhinə mina partlayışı nəticəsində xəsarət almışdı. ANAMA, DİN və Baş Prokurorluq birgə məlumatlarında hər zaman vətəndaşları təhlükəsizlik qaydalarına riayət etməyə, mina təhlükəsi işarələrinin göstəricilərinə diqqətlə yanaşmağa, bələd olmadıqları ərazilərə daxil olmamağa, çəpərləmə fəaliyyəti aparılan ərazilərə müdaxilə etməməyə çağırır.

44 günlük Vətən müharibəsindən sonra artıq 400 nəfərdən çox Azərbaycan vətəndaşı Ermənistanın mina terrorunun qurbanına çevrilib. Bu, yalnız fiziki deyil, həm də insanların psixoloji və sosial baxımdan dərindən təsirləndiyi ciddi bir problemdir. İşğal dövründə ərazilərimizə basdırılmış minalar regionda qalıcı sülhün bərqərar olmasına ciddi təhdid yaradır. Bu təhlükənin qarşısının alınması üçün beynəlxalq əməkdaşlıq və yardımlar olduqca vacibdir. Eyni zamanda, Ermənistanın minalarla çirkləndirdiyi ərazilərdəki humanitar vəziyyətin ciddi şəkildə nəzərə alınması və Ermənistanın beynəlxalq hüquq çərçivəsində məsuliyyətə cəlb edilməsi aidiyyəti beynəlxalq qurumlar qarşısında mühüm bir öhdəlik olaraq qal-





maqdadır. Minaların məqsədli şəkildə basdırılması insan hüquqlarının ciddi şəkildə pozulmasına, regionda sülhün və təhlükəsizliyin bərpasını çətinləşdirməyə səbəb olur.

### Problem insanların qayıdışına əngəl yaradır

Digər tərəfdən, ərazilərimizdə basdırılmış minalar və partlamamış hərbi sursatlar işğaldan azad edilmiş bölgədə bərpa və yenidənqurma işlərinin icra edilməsinə, keçmiş məcburi köçkünlərin təhlükəsiz şəkildə öz yurdlarına qayıdışına və bu torpaqlarda yaşayışına ciddi maneə törədir. Ermənistan tərəfindən 30 ilə yaxın işğal dövründə basdırılmış minaların dəqiq xəritələrinin təqdim olunmaması isə onların beynəlxalq hüququn və beynəlxalq humanitar hüququn norma və prinsiplərinə hörmətsizliyini hələ də açıq şəkildə nümayiş etdirməkdədir. Xüsusilə, mina qurbanlarının sayının artmasının əsas səbəblərindən biri Ermənistanın üzərinə götürdüyü öhdəliyə zidd olaraq dəqiq mina xəritələrini ölkəmizə verməməsidir.

Məlumdur ki, müharibə başa çatandan sonra Ermənistan mina xəritələrinin bir hissəsini Azərbaycan tərəfinə təhvil vermişdi. Lakin araşdırmalar nəticəsində məlum oldu ki, erməni tərəfinin təqdim etdiyi xəritələrin az hissəsi düzgündür. Rəsmi Bakı dəfələrlə Ermənistana düzgün xəritələrin verilməsi ilə bağlı çağırış edib. Nəzərə almaq lazımdır ki, mülki təyinatlı ərazilərin kütləvi şəkildə minalanması beynəlxalq hüquq normalarının ciddi şəkildə pozulması ilə yanaşı, insanlıq əleyhinə törədilən cinayətdir. Ermənistanın minaları təmas xəttindən kənarda da basdırmasının məqsədi mülki insanların daha çox itki verməsi məqsədi daşıyır. Hazırda azad olunmuş ərazilərdə böyük quruculuq işləri həyata keçirilir. Həmin ərazilərdə mina qurbanı olanlar da daha çox quruculuq işləri ilə məşğul olan mülki şəxslərdir. Bu fakt bərpa işlərinin daha sürətli aparılmasına ciddi əngəl törədir. Ona görə də, müvafiq beynəlxalq təşkilatlar, bütövlükdə dünya ictimaiyyəti Azərbaycanın çağırışlarına adekvat cavab verməli və bütünlüklə, dəqiq mina xəritələrinin ölkəmizə təhvil verilməsi üçün rəsmi İrəvana təzyiq göstərilməlidir.

### Beynəlxalq birlik səssiz qalmamalıdır!

Ölkəmiz beynəlxalq ictimaiyyəti mütəmadi olaraq Ermənistanın mina terror barədə məlumatlandırır, müxtəlif platformalar çərçivəsində bu yöndə tədbirlər keçirir. Məqsəd beynəlxalq birliyinin diqqəti problemin həllinə yönəltməkdir. Bütün bunları nəzərə alaraq, beynəlxalq ictimaiyyət minatəmizləmə fəaliyyətlərinin təxirəsalınmazlığını qəbul etməli, Azərbaycanın davam edən minatəmizləmə səylərinə dəstək olmalıdır. Çünki sözügedən ərazilər minalarla həddən artıq çirklənibdir. Müsbət haldır ki, ölkəmizin dostları bu istiqamətdə öz dəstəyini göstərir. Bütün bunlarla yanaşı, müvafiq beynəlxalq təşkilatlar, ayrı-ayrı ölkələrin parlamentləri, insan haqlarının müdafiəsi ilə məşğul olan qurumlar Azərbaycana qarşı davam etdirilən mina terroruna biganə qalmamalıdır.

**Nardar BAYRAMLI**

# Avropa razılaşdı...

## “Köhnə qitə” Ukrayna üçün Paris bəyannaməsini imzaladı

2025-ci ilin sonunda intensivləşən Ukrayna-Rusiya müharibəsinin bitməsi istiqamətində gedən danışıqlar yeni ildə də davam etdirilir. Qeyd edək ki, dekabrın 28-də Ukrayna Prezidenti Volodimir Zelenski ilə ABŞ Prezidenti Donald Tramp arasında baş tutan 4-cü görüşdən öncə Tramp Rusiya Prezidenti Putin ilə telefonla danışmışdı. Görüşdən sonra isə bildirilmişdi ki, Ukraynada hərbi əməliyyatlara son qoymaq üçün mümkün razılaşma ilə bağlı mövqelərdə əhəmiyyətli dərəcədə yaxınlaşma mövcuddur. Donbasın statusu və gələcək taleyi ilə bağlı məsələnin açıq qalmasına baxmayaraq, Zelenski də görüşü müsbət qiymətləndirmişdi və sülh planının 90 faiz razılaşdırıldığını demişdi. Danışıqlar zamanı təhlükəsizlik zəmanətlərinə xüsusi diqqət yetirilmişdi - qeyd olunmuşdu ki, prosesin həyata keçirilməsi üçün əsas məsuliyyət Avropanın üzərinə düşməlidir və ABŞ buna tam dəstək verəcək.



### Parisdə görüş...

Yeri gəlmişkən, yanvarın 6-da Parisdə Könüllülər Koalisiyasının liderləri arasında danışıqlar baş tutub. Ukrayna Prezidenti Volodimir Zelenski, Fransa Prezidenti Emmanuel Makron, ABŞ da daxil olmaqla, təxminən, 35 ölkənin nümayəndələri arasında baş tutan görüşdə Ukrayna üçün təhlükəsizlik zəmanətləri, dəstək mexanizmləri və atəşkəs üçün mümkün şərtlər müzakirə edilib. Zirvə görüşündən sonra müttəfiqlər Ukrayna ordusuna dəstək, atəşkəs monitorinqi mexanizmləri, çoxmillətli qüvvələrdə iştirak və uzunmüddətli təhlükəsizlik əməkdaşlığını nəzərdə tutan əsas sənədlərin layihələri barədə razılığa gəliblər. Prezident Zelenski Fransa Prezidenti Emmanuel Makron və Böyük Britaniyanın Baş naziri Keir Starmer ilə birlikdə müharibənin bitməsindən sonra Ukraynada çoxmillətli qüvvələrin yerləşdirilməsi ilə bağlı niyyət bəyannaməsi imzalayıblar. Emmanuel Makron deyib ki, sənəd bir neçə elementdən ibarət təhlükəsizlik zəmanətləri sisteminə aiddir və Avropa ölkələri ilə ABŞ arasında hərəkətlərin əlaqələndirilməsi ilə bağlı müvafiq hesabat artıq komitə rəhbərləri tərəfindən hazırlanıb: “Bu gün biz Paris Bəyannaməsində öz əksini tapan və davamlı sülh üçün güclü zəmanətlər verən əhəmiyyətli irəliləyiş əldə etdik. Könüllülər koalisiyasının bu bəyannaməsi ilk dəfə olaraq tam formatda Ukrayna və Amerika Birləşmiş Ştatları arasındakı əməliyyat yaxınlaşmasını tanıyır”.

Onun sözlərinə görə, tərəflər silahlı qüvvələr arasında qarşılıqlı əlaqəni asanlaşdırmaq və Ukrayna, Avropa dövlətləri, koalisiya ölkələri, eləcə də ABŞ arasında əməkdaşlığı gücləndirmək üçün Koalisiya Əməliyyat Qərargahı daxilində Koordinasiya Mərkəzi yaratmaq barədə razılığa gəliblər. O, həmçinin son aylarda koalisiyanın yanaşmasının əlaqələndirildiyini və sistemləşdirildiyini vurğulayıb.

### Maddi və hərbi dəstək tələb olunacaq

Bəyannamədə təhlükəsizlik zəmanətlərinin əsas komponentləri, xüsusən də koalisiya dövlətlərinin iştirakı ilə ABŞ-ın rəhbərliyi altında atəşkəs monitorinq mexanizmlərinin tətbiqi də müəyyən edilib. Makron deyib ki, “biz təcavüzün qarşısının alınması üçün ilk müdafiə xətti olan Ukrayna Silahlı Qüvvələrinə dəstək vermişik. Bu, 800 min Ukrayna əsgərindən ibarət format olacaq və potensial təcavüzün qarşısını almaq üçün maddi və hərbi dəstək tələb olunacaq. Atəşkəsdən sonra yaranacaq çoxmillətli qüvvələrin təşkili üçün hazırlıqları davam etdirəcəyik”. Sənəddə həmçinin Rusiyanın yeni hücumu halında müttəfiqlərin Ukraynanı dəstəkləməsi üçün hüquqi öhdəlik də nəzərdə tutulur.



Zelenski bildirib ki, Könüllülər Koalisiyasının bütün üzvləri real təhlükəsizliyi təmin etmək üçün çalışmağa sadiqdirlər. “Bu, çox spesifikdir. Üç ölkəmiz tərəfindən imzalanmış bir bəyannamə, ümumi bəyannamə və bu niyyət bəyannaməsi var. Bu, koalisiyanın və Avropa ölkələrinin sülh üçün işləməyə hazır olduğunu göstərir. Diplomatiya sülhə nail olduqda Könüllülər Koalisiyasının qüvvələrini yerləşdirə bilmək üçün hazır olmaq istəyirik. Təfərrüatlar digər sənədlərdə də öz əksini tapacaq”, - deyən Ukrayna dövlət başçısı qeyd edib ki, hansı qüvvələrə ehtiyac olduğunu və bütün bunları kimin əlaqələndirəcəyini qiymətləndiririk. “Biz həmçinin monitorinq üzərində işləmək və müəyyən qüvvələrin, eləcə də Ukrayna ordusunun necə maliyyələşdiriləcəyini dəqiq müəyyən etmək istəyirik”, - deyə o bildirib.

Ukrayna prezidenti əlavə edib ki, bu razılaşmada Rusiyanın gələcək təcavüzünün qarşısını ala biləcək hər şey vacibdir: “Biz həmçinin Amerika nümayəndələri ilə irəliləyiş əldə etmişik. Parisdə sənədlər üzərində işlədik və cənab Vitkoff və cənab Kuşnerlə əlavə görüşlər keçirəcəyik. Biz bir neçə ikitərəfli müqavilə və sənəd, eləcə də üçtərəfli sənədlər üzərində işləyirik və ümid edirik ki, onları tezliklə müxtəlif formatlarda imzalayacağıq”.

### Britaniya dəstəyini davam etdirəcək...

Böyük Britaniyanın Baş naziri Keir Starmer sülh müqaviləsindən sonra Ukraynada mümkün qüvvələrin yerləşdirilməsi ilə bağlı niyyət bəyannaməsinin imzalandığını elan edib və bunun Londonun Ukraynaya verdiyi qəti və uzunmüddətli dəstəyin bir hissəsi olduğunu vurğulayıb. “Bu, Britaniya, Fransa və tərəfdaş qüvvələrinin Ukrayna ərazisində fəaliyyət göstərə biləcəyi, Ukrayna hava və dəniz məkanının təhlükəsizliyini təmin edə biləcəyi və Ukraynanın silahlı qüvvələrini gələcək üçün yenidən qura biləcəyi hüquqi çərçivənin yaradılmasına yol açır. Bu məsələləri ətraflı müzakirə etdik. Deyə bilərəm ki, atəşkəsdən sonra Böyük Britaniya və Fransa Ukraynanın müdafiə ehtiyaclarını ödəmək üçün silah və hərbi texnikanın saxlanması üçün obyektlər yaradacaqlar”.

Starmer bildirib ki, 2026-cı ildə Ukraynanın müdafiəsinə dəstəyi gücləndirməyə davam ediləcək. O cümlədən, Rusiyanın hərbi xərclərini maliyyələşdirən neft treyderlərinə və kölgə donanması operatorlarına qarşı əlavə tədbirlər görüləcək.

### Almaniya da razıdır...

Almaniya kansleri Fridrix Merts bildirib ki, Berlin Rusiyanın Ukraynaya qarşı başlatdığı müharibəyə tez bir zamanda son qoymaq üçün səylərini artırmağa davam edəcək. Onun sözlərinə görə, məqsəd 2015-ci il Minsk razılaşmalarından fərqli olaraq etibarlı təhlükəsizlik zəmanətlərinə əsaslanacaq atəşkəsə nail olmaqdır. O, avropalıların Ukrayna ilə birlikdə belə bir atəşkəsin şərtlərini birgə formalaşdırmaq üçün səy göstərdiklərini vurğulayıb.

Mers həmçinin qeyd edib ki, hər bir koalisiya üzvü ölkə öz töhfəsini müəyyən etmək üçün öz daxili proseslərindən keçməlidir - o, eyni zamanda Almaniyanın Ukraynaya siyasi, maliyyə və hərbi dəstəyini davam etdirəcəyini vurğulayıb. “Bu, məsələn, Ukrayna üçün qonşu NATO zonasında atəşkəsdən sonra orada olacağımız anlamına gələ bilər. Almaniyanın töhfəsinin növü və miqdarına gəldikdə isə, bu şərtlər müəyyən edildikdən və aydınlaşdırıldıqdan sonra qərar vermək Almaniya hökuməti və parlamentinin səlahiyyətindədir.

Görüşdə iştirak edən ABŞ-ın xüsusi nümayəndəsi Stiv Vitkoff bildirib ki, o və Cared Kuşner təxminən 10 saat danışıqlar aparıblar. O, Donald Trampın niyyətinin Ukraynada sülhə nail olmaq olduğunu vurğulayıb. Onun sözlərinə görə, əvvəlcə Cenevrədə, daha sonra isə Berlində əhəmiyyətli irəliləyiş əldə edilib. O əlavə etdi ki, təhlükəsizlik protokolları üzərində iş başa çatıb və onlar Ukrayna cəmiyyətinə müharibənin sonunun qəti olacağına dair inam verməlidir.

Qeyd edək ki, Uitkoff Putinin xüsusi nümayəndəsinə Ukrayna ilə razılaşdırılmış sülh planını təqdim edib. “Axios” portalının məlumatına görə, Rusiyanın xarici ölkələrlə investisiya və iqtisadi əməkdaşlıq üzrə xüsusi nümayəndəsi və Rusiya birbaşa investisiya fondunun rəhbəri Kirill Dmitriyev Parisdə ABŞ Prezidenti Donald Trampın xüsusi nümayəndəsi Stiven Uitkoff və Amerika liderinin kürəkəni, iş adamı Cared Kuşner ilə görüşüb. Görüş Uitkoffla Kuşnerin Ukrayna və Avropa ölkələrinin nümayəndələri ilə iki günlük

### Plan Rusiyaya təqdim olundu...

danışıqlardan sonra baş tutub və Rusiya ilə Ukrayna arasındakı münaqişənin həlli üçün mümkün yol müzakirə olunub. Qeyd olunub ki, Trampın planının demək olar ki, bütün aspektləri üzrə Ukrayna ilə razılığa gələn Ağ Ev, Rusiya rəhbərliyindən bu təklifə aydın cavab istəyir.

**P.İSMAYILOV**

---

## Trampın neft nəhənglərinin rəhbərləri ilə görüşü gözlənilir



ABŞ Prezidenti Donald Tramp Venesuela neftinin gələcəyini müzakirə etmək üçün dünyanın aparıcı şirkətlərinin rəhbərlərini bir araya toplamağa hazırlaşır. AZƏRTAC xəbər verir ki, neft nəhənglərinin rəhbərlərinin Donald Tramp və Ağ Evin yüksəkvəzifəli rəsmiləri ilə görüşü gözlənilir. Görüşdə “Chevron”, “Exxon Mobil” və “ConocoPhillips” kimi şirkətlərinin rəsmilərinin iştirakı nəzərdə tutulur. Əsas müzakirə mövzuları arasında Venesuelada azalan investisiyalar və Qərb şirkətlərinin ölkədən çıxması səbəbindən ən aşağı səviyyəyə düşən neft hasilatını bərpa etmək imkanları var. Həmçinin görüşdə Venesuelanın hazırkı ehtiyaclarının dərəcəsi və neft şirkətlərinin bu ölkəyə təhlükəsiz şəkildə geri qayıtması üçün münbit şəraitin təmin olunması nəzərdən keçiriləcək.

Mənbələrə görə, İspaniyanın “Repsol” və Hindistanın “Reliance” şirkətinin rəhbərləri də görüşə dəvət olunub.

## Qrenlandiyalıların 85 faizi amerikalı olmaq istəmir




Qrenlandiyalıların 85 faizi Danimarkada həyat səviyyəsinin daha yüksək olduğuna inandıqları üçün amerikalı olmaq istəmirlər. “Financial Times” qəzeti bu barədə “Verian” şirkəti tərəfindən aparılan sorğuya istinadla məlumat yayıb. Məlumata görə, qrenlandiyalıların əksəriyyəti ABŞ-dakı cinayətkarlıq və bahalı səhiyyə xidmətlərindən narahatdır. Nəşr ABŞ-ın Qrenlandiyanın 57 min sakininə könüllü olaraq Amerika vətəndaşlığına müraciət etdikləri təqdirdə onların hər birinə pasport və 1 milyon dollar təklif edə, İlon Maskın isə onlara “Tesla” elektromobili verə biləcəyi iddiasını irəli sürüb.

Qeyd edək ki, Donald Tramp dəfələrlə Qrenlandiyanın ABŞ-a birləşməli olduğunu bildirib. O, 2025-ci ilin may ayında “NBC News” telekanalına müsahibəsində Qrenlandiya məsələsinin həlli üçün güc tətbiqini istisna etməyib. Cari il yanvarın 6-da isə Ağ Ev yazılı açıqlamasında Qrenlandiya ilə bağlı planları şərh edərkən hərbi güc tətbiqinin həmişə Baş Komandanın ixtiyarında olduğunu vurğulayıb.

## Vaşinqton və Kiyev razılaşdı



ABŞ administrasiyası və Kiyev rəsmiləri Ukrayna böhranının mümkün həllini nəzərdə tutan sülh planı ilə bağlı razılığa gəliblər. Bu barədə “Axios” portalı məlumat yayıb. Portalın məlumatına görə, Ağ Ev Trampın planının demək olar ki, bütün aspektləri üzrə Ukrayna ilə razılığa gəlib və indi Rusiya rəhbərliyindən bu təklifə aydın cavab almaq istəyir.

Daha əvvəl nəşr Rusiya Prezidentinin xarici ölkələrlə investisiya və iqtisadi əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Kirill Dmitriyevin Ukrayna və Avropa ölkələrinin nümayəndələri ilə ikigünlük danışıqlardan sonra Parisdə amerikalı Stiven Uitkoff və Cared Kuşnerlə görüşdüyü barədə məlumat vermişdi.

***Nardar***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Bakmətbuat” MMC - 0124314313
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




*Yeganə BAYRAMOVA*

# İnsanla təbiət arasında körpü...

## Milli parklar bizə əmanət edilən gələcəkdir

11 yanvar Dünya Qoruqlar və Milli Parklar Günüdür. 1917-ci il yanvarın 11-də dünyada ilk dəfə Rusiyada nadir heyvanların qorunması məqsədilə Baykal gölü üzərində Barquzin Dövlət Qoruğu yaradılıb. 1997-ci ildən isə bu tarix Dünya Vəhşi Təbiət Fondunun təşəbbüsü ilə hər il qeyd olunur. Dünyanın ayrı-ayrı şəhərlərində öz qeyri-adiliyi ilə seçilən və xüsusi maraq doğuran parklar var.




Hansı ki həmin parklar insanlara ayrı bir gözəlliyi göstərir.

Dünyanın 10 belə qeyri-adi parkı haqqında məlumata nəzər salaq:

**Laosda “200 Budda” parkı**

“200 Budda” parkı bu yaxınlarda Laosun dini xadimlərindən biri Bunilya Sulitat tərəfindən yaradılıb. Parkın inşası uzun müddət davam etsədə, Sulitat onu yekunlaşdıra bilməyib. Dəli olub. Parkın elədə geniş olmayan ərazisində 200 Buddizm tanrılarının, İudey və Buddizm mifoloqiyalarının qəhrəmanlarının heyykəlləri qoyulub. Heykəllərlə yanaşı, parkda Sulitin şüşə tabut içərisində balzamlanmış cəsədi də ziyarətçilər üçün açıqdır.

**Avstriyada “Yaşıl ada” parkı**

Bu, dünyanın ən maraqlı parklarından biridir. Qış vaxtı insanlar bu parka gəzmək, onlara rahat olan yerlərdə, skamyalarda oturub dincəlmək məqsədi ilə gəlir. Yay vaxtı isə baş verən təbii proseslər ərzində park su altında qalır. Yəni həmin o parkda yollar, bitkilər, oturacaqlar və sairə su altında qalır. Su isə o qədər təmiz olur ki, ziyarətçilər sandallarda üzərkən su altında qalmış parkı seyr edir. Yaşıl göldə yay vaxtı rəngarəng balıqlar da üzür. Və bu prosses periodik olaraq hər il baş verir.

**Taylandda “Günahkarlar parkı”**

Bu parkı qeyri- sabit psixikası olan adamların ziyarəti üçün məsləhət görülmür. Məsələ orasındadır ki, bu park cəhənnəmin yer üzündəki əksidi. Hətta bu cür dəhşətli görüntü ilə yetinməyənlər taylandlılar, eybəcər səslərlə də parkı tamamlayıblar. Hətta bir çox taylandlılar tərbiyə məqsədi ilə, bura öz uşaqlarını gətirirlər.

**Şotlandiyada Kosmiki park**

Bu park ABŞ-ın məşhur kosmik araşdırmaçıları Çarlz Ceniks və onun həyat yoldaşı Meqqi Çesvik tərəfindən yaradılıb. Cütlüyün bu parkı yaratmaqda məqsədi, insanlarda kosmik fəza və insanın oradakı mövcudluğu





haqda təsəvvür yaratmaqdır. Parkın ziyrətçiləri burada “qara dəliy”ə düşə bilər, Kleynin butlakasına daxil ola bilər, hətta ağır riyazi məsələlər üzərində düşünə bilər.

**ABŞ da “Yaradılış” parkı**

Bu parkın ümumilikdə yaradılma məqsədi, parkı ziyarət edən insanlara Yer üzünün İncirdə göstərildiyi kimi Adəm və Həvvadan yaradılması əslində heç bir vaxt və heç bir halda Təkamül nəzəriyyəsinə zidd olmayıb. Məsələ burasındadır ki bu parkda olan bir çox eksponatlar həqiqi arxeoloji axtarışlar zamanı əldə olunan tapıntılardır.

**Niderlandda, “Kokenfox” parkı**

Kokenfox bütün dünyada öz tulpanları ilə məşhurdur. Parkın 32 hektar ərazisində 100 növ tulpan yetişib. Təbii ki, parkda tülpanlardan başqa güllər də yetişir: orxideyalar, qızıl güllər, yasəmənlər və sairə. Amma təəssüf ki, bu park tülpanların yetişməsi mövsümü ilə əlaqədar hər il mart ayından may ayına qədər fəaliyyət göstərir. Orta hesabla hər il tülpanları görməyə, parka 800 min insan axın edir.

**Kosta-Rikada “Fransisko Alvarado” parkı**

Bu park landşaft dizaynının bir möcüzəsidir. Ziyarətçilər burada müxtəlif ağac növlərindən, canlı bitkilərdən hazırlanmış heyvan fiqurları, insan fiqurları görə bilərlər. Parkın vahiməli bir görünüşü var. Xatırladaq ki, bu park ümumilikdə canlı bitkilərdən ibarətdir.

**Sinqapurda quş parkı**

Burada dünyanın hər bir nöqtəsindən gətirilmiş quşlar saxlanılır, Avrpadan, Afrikadan, Amerikadan və s. Parkın ən böyük üstünlüyü onun tərtibatındadr. Bura daxil olan hər bir ziyarətçidə elə bir təsəvvür yaranır ki, elə bil bu quşlar tamamilə azadlıqdadırlar. Burada qəfəs və yaxud da quşları saxlamaq üçün heç bir vasitə yoxdur. Quş parkında hər növ quşlar üçün onlara spesifik olan, təbii atmosfer yaradılıb. Məsələn, pinqvinlər üçün kondisionerli sistem, flaminqolar üçünsə süni hovuzlar yaradılıb.

Bu maraqlı parkda, yuxarıda da qeyd etdiyimiz kimi dünyanın hər yerindən gətirilən, 1500 quş növü saxlanılır. Parkda olan ən böyük qadağa isə quşları yemləməkdir. Bu, onların sağlamlıqları üçün zərərlidir.

**Çində “Karliklər krallığı” parkı**

Bu ərazi parkdan daha çox karliklərin yaşadığı bir kəndi xatırladır. Parkın ərazisində xəstəxana, məktəb və mağazalar var. Karliklər krallığın-



da yerləşən bütün evlər göbələk formasını daşıyır. Parkın bütün xidmətləri, balacaboy sakinlər tərəfindən göstərilir.

**Yaponiya - “Şahmat parkı”**

Yaponiyanın Osaka şəhərində, stolüstü oyunlara həsr olunmuş, park salınıb. Parkda olan bütün yollar, oturacaqlar, uşaq atraksionları, şahmat şəklində, şahmat fonuna uyğun tərtib edilib. Bu Park yerli yaponlar tərəfindən çox sevilir. Bu Park həm də bir xüsusiyyəti ilə də maraqlıdı, parkın hazırlanmasına o qədərdə böyük bir vəsait xərclənməyib. Şahmat parkı ekoloji cəhətdən təmiz və ucuz materiallardan hazırlanıb.

Milli parklarımız Abşeron yarımadasında, ölkənin şimal, cənub və qərb hissəsində yerləşməklə rəngarəng biomüxtəliflik və landşaft komplekslərini əhatə edir. Ümumiyyətlə, ölkəmizdə milli parkların yaradılma tarixi 2003-cü ilə təsadüf edir. 2003-cü ildən başlayaraq Azərbaycanda Milli Park statuslu təbiət əraziləri yaradılıb. Xüsusi mühafizə olunan təbiət ərazilərinin yaradılmasında əsas məqsəd unikal təbiət komplekslərinin, landşaftın, Qırmızı kitaba düşmüş, nəsli kəsilməkdə olan fauna və flora növlərinin mühafizəsindən ibarətdir.

Hazırda ölkəmizdə 893 min ərazini əhatə edən xüsusi mühafizə olunan təbiət əraziləri şəbəkəsi mövcuddur. Bu, ölkə ərazisinin ümumilikdə 10,3 faizini təşkil edir. Bunun da 3,7 faizi Milli parkların payına düşür. 1925-ci ildə Azərbaycanda ilk dəfə Göygöl Dövlət Təbiət Qoruğu yaradılıb. 1929-cu ildə Qızılağac və Zaqatala qoruqları, 1936-cı ildə Hirkan qoruğu təsis edilib. 1958-ci ildən 1990-cı ilə kimi qoruqların yaradılması prosesi davam etdirilib və bir neçə ildən bir yeni qoruq təşkil edilib. 1990-cı ildə Altıağac Dövlət Təbiət Qoruğu yaradılıb. 2003-cü ildə Naxçıvanda Şahbuz, 2004-cü ildə isə Eldar şamı, 2007-ci ildə Bakı və Abşeron yarımadasının Palçıq Vulkanları Qrupu, 2008-ci ildə isə Korçay Dövlət Təbiət Qoruğunun əsası qoyulub. Eyni zamanda 2003-cü ildə Türyançay, Pirqulu, İlisu, Qarayazı, İsmayıllı, 2008-ci ildə isə Zaqatala Dövlət Təbiət qoruqlarının əraziləri 2-3 dəfədən çox genişləndirilib. Onu da qeyd edək ki, ölkəmizdə 2003-cü ilə kimi Milli parklar mövcud olmayıb. 2003-cü ildən başlayaraq ETSN tərəfindən Ordubad, Şirvan, Ağ göl, 2004-cü ildə Hirkan, Altıağac, 2005-ci ildə Abşeron, 2006-cı ildə Şahdağ, 2008-ci ildə isə Göygöl Milli parkları yaradılıb.

Milli parklar və qoruqlar biomüxtəlifliyin qorunması, planetimizin ekosistemlərinin sağlamlıq və davamlılığının təmin olunmasında mühüm vasitədir. Onlar gələcəyə qoyulan sərmayədir. Milli parklar və qoruqlar həmçinin gələcək nəsillərin həyatın zənginliyi və müxtəlifliyindən faydalanmasını təmin edir.

*İdman*

## “Sabah” fransalı futbolçusunun transfer edib



“Sabah” fransalı futbolçu Aaron Maludanın transfer hüququna yiyələnib. Klubdan AZƏRTAC-a bildirilib ki, 20 yaşlı yarımmüdafiəçinin icarəsi ilə bağlı Fransanın “Lill” komandası ilə bağlanmış müqavilədə nəzərdə tutulan transfer bəndi qüvvəyə minib. Vingerlə 4 illik yeni sözləşmə bağlanıb. Qeyd edək ki, Aaron Maluda ötən ilin sentyabr ayından “Sabah”ın formasını geyinir. O, Bakı təmsilçisinin heyətində 12 oyunda 2 qolla yadda qalıb.

## “Real” İspaniya Superkubokunun finalında



İspaniya Superkubokunda daha bir finalçının adına aydınlıq gəlib. Yarımfinal mərhələsinin son matçında “Atletiko” ilə “Real Madrid” üzüzə gəlib. Gərgin keçən qarşılaşmada azarkeşlər 3 qolun şahidi olublar. Oyun “kral klubu”nun 2:1 hesablı qələbəsi ilə yekunlaşıb. Xabi Alonsonun rəhbərlik etdiyi kollektiv bu nəticə ilə adını finala yazdırıb. Onlar həlledici qarşılaşmada “Barselona” ilə üz-üzə gələcəklər. “Bavariya” futbolçusunu icarəyə göndərib.

# Çinli turistlər Azərbaycanı seçir

Çin Kommunist Partiyasının rəsmi nəşri ola “Renmin Ribao” (“People’s Daily”) qəzetində “Azərbaycan çinli turistləri fəal cəlb edir” sərlövhəli məqalə dərc olunub. Məqalədə Azərbaycan ilə Çin arasında turizm mübadiləsinin son illərdə durmadan artdığı bildirilir. Azərbaycan Dövlət Turizm Agentliyinin son məlumatlarına istinad edən nəşr yazır ki, 2025-ci ilin ilk 10 ayında Azərbaycana 57 min Çin turisti səfər edib. Bu da illik müqayisədə 49 faiz artım deməkdir. 2024-cü ildə isə artım 93 faiz təşkil edib. Hazırda Çin turistlərin Azərbaycana gələn turistlərin sayına görə ilk 10 mənbə ölkəsinə daxil olub və Çin ilə Azərbaycan arasında turizm əməkdaşlığı müsbət inkişaf tendensiyası göstərir.

Qeyd olunub ki, “Odlar Yurdu” kimi tanınan Azərbaycan qədim İpək Yolunda zəngin tarixi və mədəni irsə və müxtəlif təbii mənzərələrə malik mühüm bir qovşaqdır. Bakının qədim və müasir memarlığı və incəsənəti, Qobustan qaya rəsmlərinin və palçıq vulkanlarının tarixi xüsusiyyətləri və təbii mənzərələri, eləcə də duz mağarası terapiyası və neft vannaları kimi unikal təcrübələr Azərbaycanın



vacib turizm resurslarını təşkil edir.

Çindən Azərbaycana səfər edən turistlərin sayının artmasında 2024-cü ilin iyulunda Azərbaycanın Çin vətəndaşları üçün birillik birtərəfli vizasız rejimini tətbiq etməsinin və ötən ilin iyulundan Çin-Azərbaycan arasında adi pasport sahibləri üçün vizasız səyahət müqaviləsinin qüvvəyə minməsinin əhəmiyyəti vurğulanıb.

Məqalədə Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyevə istinadla qeyd olunub ki, Azərbaycan Çin turizm bazarına yüksək qiymət verir və turizm sənayesində Çinlə əməkdaşlığı gücləndirməyə ümid edir. Çin Azərbaycanın turizm sənayesi üçün strateji prioritet bazardır. Hazırda Azərbaycan “China Ready” layihəsi vasitəsilə Çin turistlərini qəbul etmək potensialını artırır.

Qeyd olunub ki, Çində Azərbaycanın turizm potensialını tanıtmaq üçün Pekin, Şanxay və Quancou da daxil olmaqla bir neçə şəhərdə tədbirlər keçirilib, “Ctrip” və “Qunar” kimi onlayn səyahət platformaları, “WeChat”, “Douyin”, “Weibo” və “Xiaohongshu” kimi sosial media platformaları ilə əməkdaşlıq davam edir. Məqalədə iki ölkə arasında birbaşa uçuşların turizm əməkdaşlığına mühüm dəstək verdiyi vurğulanıb.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4313**
**Sifariş: 12**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova